QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 112 (6312) 26 iyun 2021-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Azərbaycan Ordusuna Prezident qayğısı, dövlət dəstəyi!



Bax 3

*İşğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Prezidentin əlavəsi müəyyən edilib*

## Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının XI hesabat konfransı keçirilib




Bax 5

İyunun 25-də Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

## Vətən müharibəsi qazisi: "Medallarla təltif olunmağımız bizdə böyük qürur hissi yaradıb"



Ötən il sentyabrın 27-də Vətən müharibəsi başlayanda döyüşlərə qoşuldum. Döyüşlər Goranboyun Tapqaraqoyunlu kəndindən başlayaraq Talış kəndi istiqamətində gedirdi...

Bax 6



Bax6

## Vətən müharibəsi qazisi Anar Əliyev: "Fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun zabitiyəm"

## Azərbaycan Ermənistanın faşist simvolikasını aradan qaldırıb



Erməni teleqram kanalları növbəti dəfə Azərbaycana qarşı qarayaxma kampaniyası başlatmağa cəhd etsələr də, onların bu oyunu istədikləri nəticəni verməyib...

Bax 10

## Şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara və müharibə əlillərinə xidmətlər vahid məkandan həyata keçiriləcək

Bax 7



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yeni Fərmanı ilə şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara...

Bax 12

## "Hindistan ştammı"ndan necə qorunaq?



"Bildiyimiz kimi, hətta mutasiya olunmuş formalar belə mutasiyada enerji tərkibinin müəyyən bir hissəsində dəyişiklik...

## Türkiyə Azərbaycanla saziş imzalamağa yaxındır



Bax 10




## Xankəndidəki qiyam niyə baş tutmadı? - Ankara və Moskva razılığındakı gizli məqamlar

## Dumanın Komitə sədri: Kommunikasiyaların açılması məcburidir



Bax 12

## Ukraynalı bloger bu dəfə Ağdamdadır!



Bax 15

## "Barselona" Messi ilə niyə razılığa gələ bilmir?



Bax 16

## Rəsmi xronika

Prezident İlham Əliyev Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında Fərman imzalayıb.

* * *

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsinin icrası haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının 2021-ci il 8 iyun tarixli 342-VIQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

# İlham Əliyev: Azərbaycanın mövqeyi çox açıq və aydındır!

## *Prezident İlham Əliyev Rumıniyanın, Avstriyanın, Litvanın xarici işlər nazirlərini və Avropa İttifaqının nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Cozef Borelin mandatı əsasında Azərbaycana səfər edən Rumıniyanın xarici işlər naziri Boqdan Aureskunu, Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberqi, Litvanın xarici işlər naziri Qabrielius Landsbergisi və Avropa İttifaqının nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev qeyd edib ki, bizim Avropa İttifaqı ilə əməkdaşlığımız çox uğurludur:

-Xoş gəlmisiniz. Avropa İttifaqından belə böyük nümayəndə heyətini görməyə şadam. Bu, bizim əməkdaşlığımızın, Avropa İttifaqı və onun üzvlərinin regional məsələlərə cəlb olunmasının yaxşı göstəricisidir. Bilirsiniz ki, bizim Avropa İttifaqı ilə əməkdaşlığımız çox uğurludur. Azərbaycan bir çox ölkə ilə, 9 üzv ölkə ilə strateji tərəfdaşlığa dair sənəd və sazişlər imzalayıb və qəbul edib. Düşünürəm ki, bu, bizim ölkəmizin çox böyük nailiyyətidir. Çünki bu, üzv ölkələrin üçdəbirini təşkil edir və onu göstərir ki, əməkdaşlığın çərçivəsi həqiqətən çox genişdir, qarşılıqlı maraq, qarşılıqlı əhəmiyyət kəsb edən çox sahələri əhatə edir.

Biz üç il əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını dəstəkləyən tərəfdaşlıq prioritetlərinə dair sənədi parafladıq. Bu, yeni hərtərəfli sazişin razılaşdırılması istiqamətində çox mühüm addım oldu. Mən başa düşdüyüm qədərilə sizin regiona səfəriniz Ermənistanla Azərbaycan arasında münaqişədən sonra yaranmış hazırkı vəziyyətə həsr olunub. Başqa sözlə desək, postmünaqişə vəziyyəti əhəmiyyət kəsb edir, çünki düşünürəm ki, indi - bu il və gələn il ərzində postmünaqişə vəziyyəti ilə bağlı əsas fundamental yanaşmalar işlənib hazırlanacaq. Azərbaycanın mövqeyi çox açıq və aydındır.

Mən artıq dəfələrlə bu barədə danışmışam ki, biz postmünaqişə vəziyyətindən Cənubi Qafqazda sülhməramlı inkişafa və əməkdaşlığa keçmək istəyirik. Əfsuslar olsun ki, biz indiyədək Ermənistan hökumətindən buna bənzər nə isə eşitməmişik. Ermənistan hökuməti bizim Ermənistanla sülh sazişinə dair danışıqlara başlamaqla bağlı heç bir bəyanatımıza məhəl qoymur. Lakin ola bilsin ki, seçkiqabağı vəziyyət bu cür bəyanatlar vermək üçün çox əlverişli olmayıb. Amma indi Ermənistanda seçkilər başa çatandan sonra ümid edirik ki, müsbət cavab olacaq. Əlbəttə, düşünürəm ki, sizin Ermənistanda təmaslarınız zamanı bu məsələ də müzakirə ediləcək. Çünki əgər bizim Ermənistanla sülh sazişimiz olmasa, bu, o deməkdir ki, sülh də yoxdur. Təkcə iki ölkə arasında deyil, həm də Cənubi Qafqazda sülh yoxdur. Bizə sülh və dayanıqlı inkişaf, proqnozlaşdırılma, sıfır müharibə riski lazımdır, bizə müharibə lazım deyil. Bizə əvvəl də müharibə lazım deyildi.

Beləliklə, düşünürəm ki, bu, bizim fəal əməkdaşlıq edə biləcəyimiz sahələrdir. Şadam ki, Avropa İttifaqı regional məsələlərdə öz iştirakını nümayiş etdirir və sizin səfəriniz bunun aydın göstəricisidir. Biz Cənubi Qafqazda sülh, barışıq, inkişaf və əməkdaşlıq işinə xidmət edən istənilən iştirakı qiymətləndiririk.

Müharibədən əvvəlki vəziyyətə gəlincə, mən, sadəcə olaraq, bir daha öz mövqeyimizi ifadə etmək istəyirəm. Azərbaycan hər zaman Ermənistanla münaqişənin sülh yolu ilə həllinə sadiq olub və bizim 28 il ərzində Minsk qrupu yaradılandan etibarən danışıqlar prosesində olmağımız faktının özü bunun aşkar göstəricisidir. Biz məsələni sülh yolu ilə həll etmək istəyirdik və danışıqlar prosesinin müxtəlif dövrlərində ümidlərimiz var idi.

Mən 2003-cü ildən danışıqlar prosesində iştirak etmişəm. Ermənistanın 3 lideri ilə danışıqlar aparmışam və sizə deyə bilərəm ki, bu, dünyada aparılmış istənilən növ danışıqlarda çox mənfi təcrübə idi. Çünki uzun illər davam edən bu mənasız danışıqlardan sonra biz açıq-aydın dərk etdik ki, Ermənistan sülh istəmir. Onlar status-kvonu dəyişməz saxlamaq istəyirdilər. Onlar bizim torpaqlarımızı əbədi işğal altında saxlamaq istəyirdilər və onların danışıqlarda iştirakı bir növ danışıqlar prosesinin imitasiyası idi. Onlar beynəlxalq və Avropa təşkilatlarını çaşdırmağa çalışırdılar ki, onlar həll istəyirlər, Azərbaycan isə konstruktiv deyil. Son vaxtlar baş verənlər isə çox sayda təxribatçı addımlar atmış, əməllər törətmiş və müharibəyə təhrik etmiş Ermənistan hökumətinin məsuliyyətidir. Mənim mövqeyimi sübut edə bilən çox sayda dəlil var. Mən sizə cəmi bir neçə nümunə göstərəcəyəm. Ermənistanın müdafiə naziri ictimai şəkildə bəyan etdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Bu, Azərbaycana qarşı açıq təhdid idi. Ermənistanın baş naziri bildirdi ki, Dağlıq Qarabağın qondarma rəhbərliyi danışıqlarda iştirak etməlidir. Bu, əslində, təkcə bizim maraqlarımıza qarşı deyildi, həm də ATƏT-in Minsk qrupu və onun həmsədrlərinin işləyib hazırladığı formata qarşı idi. Bu səbəbdən də bu mövqe ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini də, yumşaq desək, bir qədər təəccübləndirmişdi. Onlar obyektiv olaraq bunu danışıqlar prosesindən çıxmaq cəhdi hesab etmişdilər. Çünki danışıqların formatı iki ölkə və ATƏT tərəfindən yaradılmışdı: Ermənistanla Azərbaycan arasında olan münaqişə.

Ermənistan rəhbərliyinin daha bir təxribatçı bəyanatı o idi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu da faktiki olaraq istənilən danışıqlara son qoydu. Birincisi, bu, çox ziddiyyətli bəyanat idi, çünki bir tərəfdən Ermənistan rəhbərliyi deyirdi ki, Qarabağ müstəqil ölkədir və Azərbaycan onunla danışıqlar aparmalıdır. Sonra da deyirdilər ki, Qarabağ Ermənistandır. Biz onlardan bunlardan hansının həqiqət olduğunu soruşduq. Əslində, onlar hər iki halda yalan danışırdılar. Lakin bu, istənilən danışıqları lazımsız və mənasız edən çox təxribatçı bəyanat idi. Minsk qrupu ölkələrinin səfirləri ilə görüşlərimdə mən görürdüm ki, bu mövqe onları da bir qədər çaşdırır və təəccübləndirir və əslində, onlar nə edəcəklərini bilmirlər. Əgər Qarabağ Ermənistandırsa, onda bu barədə nə danışmaq olar? Bu, danışıqlar prosesini tamamilə məhv etmək və torpaqları əbədi işğal altında saxlamaq üçün Ermənistan rəhbərliyinin məqsədli cəhdi idi.

Lakin bu, hələ hamısı deyil. Ötən il onlar təmas xəttində və bizim dövlət sərhədində üç təxribatçı hərbi əməl törədərək mülki şəxsləri qətlə yetirdilər, kəndlərimizi bombaladılar və bizi təhrik etdilər. Beləliklə, İkinci Qarabağ müharibəsi qaçılmaz idi və bu, hər kəs üçün aydın idi.

Hazırda biz münaqişədən sonrakı inkişaf vəziyyətindəyik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Bununla bağlı danışıqlar aparası heç nə yoxdur. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat bəzi beynəlxalq siyasətçilərin təqdim etməyə çalışdığı kimi, təkcə atəşkəs razılaşması deyil. Bu sənədə baxan hər kəs görəcək ki, o, təkcə atəşkəslə bağlı deyil, bir çox başqa məsələlərlə bağlıdır. Biz postmünaqişə vəziyyəti barədə düşünməliyik. Çıxışımın əvvəlində qeyd etdiyim kimi, biz səhifəni çevirməyə, irəli getməyə və regional sabitliyə töhfə verməyə hazırıq.

Bir daha səfərə görə minnətdarlığımı bildirmək istərdim. Ümidvaram ki, səfər çox uğurlu, səmərəli olacaq. Sizin regiona səfərinizdən sonra gələcək planları müzakirə etmək üçün biz Brüsseldəki səfirliyimiz, Xarici İşlər Nazirliyimiz vasitəsilə mütləq əlaqə saxlayacağıq. Bir daha xoş gəlmisiniz.

Rumıniyanın xarici işlər naziri Boqdan Auresku:

-Cənab Prezident, əvvəla, bu görüşdə olmaq və müzakirə aparmaq bizim üçün böyük şərəfdir, bu təklifi qəbul etdiyiniz üçün təşəkkür edirik. Üç nazir, xüsusi nümayəndə və Avropa İttifaqının xarici əlaqələr xidmətindən olan həmkarlarımızın ölkənizə səfərə gəlməsi cari ilin may ayında Lissabon şəhərində keçirilmiş Avropa İttifaqı xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü zamanı aparılmış müzakirələrin nəticəsidir. Həmin görüş Rumıniyanın təşəbbüsü ilə keçirilib və bizim təşəbbüsümüzlə gündəliyə regional münaqişələr mövzusu da daxil olunub. Sözügedən görüşün sonunda biz qərara gəldik ki, Avropa İttifaqı regionla daha yaxından məşğul olmaq, münaqişələrin həllində iştirak etmək, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə tərəflərin razılığı olduğu təqdirdə postmünaqişə dövründə inkişaf proseslərinə cəlb olunmaq istiqamətində səylərini artırmaq niyyətindədir.

Bizim burada olmağımızın məqsədi regionun sabitliyi və təhlükəsizliyinə güclü dəstək mesajını vermək, habelə Sizin də qeyd etdiyiniz kimi, münaqişədən sonrakı dövr üçün qarşıda duran bütün məsələlərin müfəssəl həlli istiqamətində nə kimi dəstəyin göstərilə biləcəyini nəzərdən keçirməkdir.

Eyni zamanda, bu səfər cari ilin sonunda keçirilməsi nəzərdə tutulan Şərq Tərəfdaşlığı Zirvə toplantısına hazırlıq məqsədi daşıyır. Avropa İttifaqı üçün Azərbaycan mühüm rola malikdir, enerji sahəsində strateji tərəfdaşdır, regionda Avropa İttifaqının ən iri ticarət tərəfdaşıdır və Avropa İttifaqının ən çox sərmayə yatırdığı ölkədir. Bizim üçün Azərbaycan Cənubi Qafqazın sabitliyi və firavanlığı baxımından böyük əhəmiyyət kəsb edir. Biz Azərbaycanı tolerantlığın, multikulturalizmin və dinlərarası dialoqun nümunəsi kimi yüksək qiymətləndiririk. Mən bilirəm ki Siz prezidentlik dövrünüzdə bütün bunlara nail olmaq üçün böyük işlər görmüsünüz.

Ölkəniz regional bağlılıq baxımından da vacib rol oynayır. Bu sahədə də müzakirələrin aparılması və gələcək əməkdaşlıq üçün geniş imkanlar var. Münaqişədən sonrakı dövr üçün proseslərdən danışarkən Sizin fikirlərinizi öyrənmək istərdik. Bildiyiniz kimi, biz buradan Ermənistana, oradan isə Tbilisiyə səfər edəcəyik. Yəni, etimad quruculuğu, yenidənqurma, vəziyyətin sabitləşdirilməsi kimi sahələrdə biz nə edə bilərik? Bu yaxınlarda müəyyən addımlar atılıb, saxlanılan bəzi şəxslər qarşı tərəfə verilib, minaların xəritələri təqdim olunub. Biz belə prosesləri gələcəkdə dəstəkləməkdə maraqlıyıq və hesab edirik ki, etimad quruculuğu baxımından bu, olduqca vacibdir.

Avstriyanın xarici işlər naziri Aleksandr Şallenberq regionun postmünaqişə dövrünü yaşadığını vurğulayaraq, bundan sonra sülh dövrünə və dayanıqlı dinc həll mərhələsinə keçilməsinin önəmini qeyd etdi. Bildirdi ki, Avropa İttifaqının regiona, o cümlədən bölgənin iqtisadi sahəsinə böyük marağı var. Aleksandr Şallenberq dedi ki, Avropa İttifaqı regionda bir çox məsələlər üzrə ATƏT ilə əlaqəli şəkildə fəaliyyət göstərir.

Litvanın xarici işlər naziri Qabrielius Landsbergis bir neçə ay əvvəl Azərbaycana səfərini məmnunluqla xatırladı. Həmin səfər zamanı bir sıra məsələlər ətrafında fikir mübadiləsinin aparıldığını qeyd edərək, budəfəki səfərin müzakirələrin davamı üçün imkan yaratdığını vurğuladı.





# Azərbaycan Ordusuna Prezident qayğısı, dövlət dəstəyi!

*İşğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Prezidentin əlavəsi müəyyən edilib*

***"İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirilmək məqsədilə həmin hərbçilərin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, Xüsusi Təyinatlı Qüvvələrdə və əməliyyat briqadalarında xidmət edən hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilib". İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların hərbi xidmət müddəti və xidmət yeri nəzərə alınmaqla aylıq vəzifə maaşlarının 20-60 faizi həcmində 5 (beş) il müddətində Müdafiə Nazirliyi tərəfindən ödəniləcək.***



Müdafiə və Maliyyə nazirliklərinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb. Sərəncam 2021-ci il iyulun 1-dən qüvvəyə minir.





### Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasəti

Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Ümumilikdə, mütərəqqi sosial siyasət həyata keçirən Azərbaycanda vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında, müsahibələrində, görüşlərində qeyd edib ki, bu sahədəki siyasətim birmənalıdır. Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir: "Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

Çünki Azərbaycan dövlətinin apardığı siyasətin əsas məqsədi ölkənin iqtisadi cəhətdən daha da inkişaf etməsidir. Təsadüfi deyil ki, hər il ölkənin büdcəsi təsdiq olunarkən əhalinin sosial rifahının artırılması diqqət mərkəzində olur. Büdcədən sosial sahəyə ayrılan vəsaitin həcmi ildən-ilə artır. İstər pandemiya şəraiti səbəbindən, istərsə də İkinci Vətən Müharibəsi dövründən dövlətin gəlirləri müəyyən qədər azalsa belə, cari ildə də sosial sahəyə ayrılan vəsaitin həcmi çoxalıb. Həyata keçirilən sosial siyasət həm də geniş əhatəli olmaqla, ölkənin sosial dəstəyə ehtiyacı olanların hamısının mənafeyi nəzərə alınıb. Azərbaycanda tələbələrdən tutmuş İkinci Dünya müharibəsinin veteranlarına kimi hamıya sosial qayğı göstərilir.Xüsusilə, Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı cari ilin yanvar ayının 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı, iyunun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirilmək məqsədilə həmin hərbçilərin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, Xüsusi Təyinatlı Qüvvələrdə və əməliyyat briqadalarında xidmət edən hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə maaşlarının artırılması ilə bağlı Sərəncamı reallığın göstəricisidir. Bu Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir.

Qed edək ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onların problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Ardı Səh. 4





Əvvəli-Səh-3

# Azərbaycan Ordusuna Prezident qayğısı, dövlət dəstəyi!

*İşğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Prezidentin əlavəsi müəyyən edilib*







Xüsusilə, Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir. Həmçinin, əlil vətəndaşlara dövlət qayğısının gücləndirilməsi siyasətinə uyğun olaraq Nazirlər Kabineti tərəfindən əlillərin sosial müdafiəsi ilə bağlı nəzərdə tutulmuş Dövlət Proqramının maliyyələşdirilməsi təmin olunub. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında", "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün artırılması və "Müharibə əlillərinə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanları bu kateqoriyadan olan insanların rifah halını yaxşılaşdırmaq və onlara göstərilən dövlətin davamlı qayğısının bariz nümunəsidir. Bütün deyilənlərlə yanaşı, Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, Mərkəzi Bank və Azərbaycan Banklar Assosiasiyası banklar tərəfindən Müdafiə Nazirliyinin rəsmi siyahısında yer almış şəhidlərdən banklar qarşısında kredit öhdəliyi olan 830 şəhidə aid 1 503 kredit üzrə həm əsas borcun, həm də faizlərin silinməsini təmin ediblər. Eyni zamanda, şəhidlərimizin ailə üzvlərinə aid olan 286 sayda, xəsarət almış hərbçilər üzrə 1 323 sayda kreditin, şəhid olmuş 15 nəfər və ciddi zərər çəkmiş 9 nəfər mülki şəxsin borc öhdəliklərinin tamamilə silinməsi təmin olunub. Həmçinin, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna əsasən, dövlət ali, orta ixtisas və peşə təhsili müəssisələrində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatda ödənişli formada təhsil alan şəhid ailələrinin üzvləri təhsil haqqı ödəməkdən azad olunmasıdır. Bütün bunlarla yanaşı, qeyd edilməli məqamlardan biri Prezident İlham Əliyevin 25 yanvar 2021-ci il tarixli Sərəncamıdır. Sərəncama uyğun olaraq 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək. Onlardan artıq 470-i verilib. Ümumilikdə indiyədək şəhid ailələrinə, müharibə əlilləri və onlara bərabər tutulan şəxslərə 9670 mənzil və fərdi ev verilib.

Göründüyü kimi, Prezident İlham Əliyevin uğurlu sosial siyasəti ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması istiqamətində mühüm addımların atılmasını, sosial inkişafda ciddi irəliləyişləri təmin edir. Bütün sosial proqramlar kimi, şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminatı proqramı da ildən-ilə uğurla davam etdirilir və əhəmiyyətli şəkildə minnətdarlıqların ifadə ediblər genişləndirilir.Azərbaycan Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

**RƏFİQƏ KAMALQIZI**

# Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının XI hesabat konfransı keçirilib

*İyunun 25-də Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. Əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev hesabat məruzəsi ilə çıxış edib. Məruzədə qeyd olunub ki, X konfransdan ötən dövr ərzində rayon təşkilatının sıralarına



3532 nəfər daxil olub. Onların 2722 nəfəri gənclər, 1987 nəfəri isə qadınlardır. Hazırda təşkilatda 122 ərazi ilk partiya təşkilatı üzrə 27 min 432 nəfər üzv birləşib. Təşkilat üzvlərinin 18 min 140 nəfərini gənclər, 15 min 220 nəfərini isə qadınlar təşkil edir. Hesabat dövründə 26 yeni ərazi ilk partiya təşkilatı yaradılıb. Bildirilib ki, YAP Səbail rayon təşkilatı



tərəfindən 2015-2021-ci illərdə siyasi-ideoloji işin təşkili, ictimai-siyasi və mədəni-kütləvi tədbirlərin keçirilməsi və gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində müxtəlif səpkili işlər



görülüb.

Rayon təşkilatının hesabat dövrü ərzində gördüyü işlər slaydlarla təqdim olunub.

Sonra YAP Səbail rayon təşkilatının Nəzarət-Təftiş Qrupunun sədri Səbuhi Gülməmmədovun hesabatı dinlənilib.

Müzakirələr zamanı YAP İdarə Heyətinin və Səbail rayon təşkila-



tının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, Auditorlar Palatasının sədri Vahid Novruzov, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rekto-





ru Cəfər Cəfərov, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü Hacan Hacıyev, YAP Veteranlar Şurası-



nın və rayon təşkilatının İdarə Heyətinin üzvü Adilə Abasova, YAP Səbail rayon təşkilatının “Aktyorlar” ərazi ilk partiya təşkilatının sədri, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini, Xalq artisti Hacı İsmayılov, YAP Səbail rayon təşkilatının Şura üzvü, 6 saylı məktəb-liseyin direktoru Gülşən Orucova, YAP Səbail rayon təşkilatının İdarə Heyətinin üzvü, 132-134 saylı Təhsil Kompleksinin direktoru Sara Xanlarova və YAP Səbail rayon təşkilatının “Rabitəçilər” ərazi ilk partiya təşkilatının sədri Elmir Vəlizadə çıxış edərək YAP Səbail rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyətinə münasibət bildiriblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Ulu Öndərimizin “Dünənin, bu günün, gələcəyin partiyası” deyə qiymətləndirdiyi Yeni Azərbaycan Partiyasının xalq, dövlət qarşısındakı böyük xidmətləri bu nəhəng təşkilatın cəmiyyətdəki mövqelərini get-gedə daha da möhkəmləndiririr, insanların bu partiyanın ideoloji-siyasi xəttinə dəstəyini gücləndirir. Yeni Azərbaycan Partiyası əbədi liderimiz Heydər Əliyevin xilaskarlıq missiyasına siyasi-mənəvi dayaq olan, Onun adı ilə simvollaşan, məsuliyyət sükanını böyük məharətlə əlində saxlayan Prezidentimiz və Partiyamızın Sədri cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin dəstəyi ilə həyata keçirdiyi müstəqil, qətiyyətli və milli maraqlara əsaslanan siyasəti nəticəsində dinamik inkişaf edən ölkəmizin daha da qüdrətlənməsi, möhkəmlənməsi naminə öz prinsip və amallarına daim sadiq olan möhtəşəm partiyadır.

Əhliman Tağıyev partiyamızın həyatında baş verən yeniliklər barədə də məlumat verib və bu baxımdan YAP-ın VII Qurultayında qəbul olunmuş qərarların böyük əhəmiyyət kəsb etdiyini söyləyib. O, YAP-ın yeni Nizamnaməsinə əsasən partiyanın yerli təşkilatlarının üzərinə düşən vəzifələr barədə də öz fikirlərini bildirib.

YAP Səbail rayon təşkilatının partiyanın nümunəvi yerli strukturlarından biri olduğunu deyən Əhliman Tağıyev təşkilatın gələcək fəaliyyətində uğurlar arzulayıb. Qeyd edək ki, konfransda YAP Səbail rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.















# Vətən müharibəsi qazisi: "Medallarla təltif olunmağımız bizdə böyük qürur hissi yaradıb"



Ötən il sentyabrın 27-də Vətən müharibəsi başlayanda döyüşlərə qoşuldum. Döyüşlər Goranboyun Tapqaraqoyunlu kəndindən başlayaraq Talış kəndi istiqamətində gedirdi. Sonra kənd Horadiz, Maralyan, Əmirvarlı, Şükürbəyli kəndləri istiqamətlərində gedən döyüşlərdə iştirak etdim. Bu barədə Vətən müharibəsi qazisi, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin baş leytenantı Elçin Vəliyev AZƏRTAC-a müsahibəsində deyib.

Oktyabr ayında düşmənin atdığı mərmi nəticəsində əl nahiyəsindən qəlpə yarası alaraq yaralandığını bildirən qəhrəman hərbçi deyib ki, Silahlı Qüvvələrin Baş Klinik Hospitalının həkimlərinin səyləri nəticəsində sağlamlığını bərpa edib və hazırda xidmətə davam edir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin imzaladığı sərəncamlarla "Döyüşdə fərqlənməyə görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunduğunu qeyd edən Elçin Vəliyev deyib: "Bu medallar biz hərbçilərdə böyük qürur hissi yaratdı. Çünki biz ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi uğrunda Vətən müharibəsində əsas döyüş tapşırıqlarımızı yerinə yetirdik. Uzun illər düşmən tapdağı altında olan torpaqlarımızı azad etdik. Bu, bizim üçün böyük fəxrdir".

## Vətən müharibəsi qazisi Anar Əliyev: "Fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun zabitiyəm"



***Sentyabrın 27-də Vətən müharibəsinin ilk anlarından Füzuli istiqamətində döyüşlərə qatıldıq. Füzulinin bir çox kəndlərinin işğaldan azad olunması uğrunda gedən qanlı döyüşlərdə iştirak etmişəm. Füzuli rayonunda düşmənin əks-hücum cəhdlərinin birinin qarşısının alınması zamanı yaralandım. Ancaq buna baxmayaraq, son ana qədər döyüşü davam etdirdik və düşmənin əks-hücum cəhdinin qarşısını aldıq. Tapşırığa uyğun olaraq hədəfə götürdüyümüz ərazini işğaldan azad edərək üçrəngli şanlı bayrağımızı orada dalğalandırdıq. Həmin an keçirdiyim hissləri sözlə ifadə etmək mümkün deyil.***

Bunu Vətən müharibəsi qazisi, Azərbaycan Ordusunun kapitanı Anar Əliyev iyunun 24-də AZƏRTAC-a müsahibəsində deyib.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin iyunun 24-də imzaladığı sərəncamlarla "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmasından qürur duyduğunu vurğulayan qəhrəman hərbçi bildirib: "Adımı təltif olunanların siyahısında görəndə çox sevindim. Bir zabit kimi, şanlı Vətən müharibəsində parlaq Qələbənin qazanılmasında xidmətlərimizin belə yüksək səviyyədə qiymətləndirilməsindən qürur duydum".

İkinci Qarabağ müharibəsində keçdiyi döyüş yolu barədə xatirələrini bölüşən Anar Əliyev deyib: "Bizim olduğumuz hərbi birləşmə sonradan Xocavənd, Daşaltı kəndi və Şuşa şəhəri istiqamətində döyüşlərdə iştirak edərək uğurlu nəticələr qazandı. Düşməni məhv edərək işğal altındakı torpaqlarımızı azad etdikcə, doğma torpaqlarımıza ayaq basdıqca sevincimizin həddi-hüdudu yox idi. Mən fəxr edirəm ki, qalib Azərbaycan Ordusunun zabitiyəm. Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev bu gün imzaladığı sərəncamlarla 44 günlük Vətən müharibəsində hərbçilərimizin göstərdiyi şücaətə, qəhrəmanlığa ən yüksək səviyyədə qiymət verdi. Biz hərbçilər bu yüksək qiymətə və etimada görə Müzəffər Ali Baş Komandanımıza ürəkdən minnətdarıq".

## YAP Gənclər Birliyində müsahibə mərhələsi başa çatıb

Yeni Azərbaycan Partiyası Gənclər Birliyi tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunan birinci "Davamlı İnkişaf Məktəbi" layihəsinin müsahibə mərhələsi başa çatıb. SIA-nın verdiyi məlumata görə, ümumilikdə layihədə iştirak üçün müraciət edən 500-dək gəncin içərisindən 146 uğurlu namizəd seçilərək müsahibəyə dəvət edilib. Müsahibə mərhələsindən uğurla keçən 17 nəfər Yeni Azərbaycan Partiyasının üzvü və 17 nəfər bitərəf gənc olmaqla ümumilikdə 34 nəfər layihədə iştirak hüququ qazanıb.

4 ay müddətində davam edəcək layihə çərçivəsində gənclərə ictimai-siyasi, sosial-iqtisadi, milli-mədəni, o cümlədən, dövlət idarəçiliyi sahələrində nəzəri və praktiki modullar əsasında seminarlar keçiriləcək, iştirakçılar xüsusi debat proqramına cəlb olunacaqlar. Yekunda iştirakçılar münsiflər heyəti qarşısında müxtəlif mövzulu təqdimatlarla çıxış edəcəklər. Proqramı ən yüksək göstəricilərlə başa vuran bir qrup gənc müxtəlif dövlət qurumlarında təcrübə proqramında iştirak etmək şansı əldə edəcək.




## Fransa portalı: "Ermənistan birinci Qarabağ müharibəsində itkin düşmüş 4000 azərbaycanlının taleyi barədə məlumat vermir"

**Azərbaycanın Yeganə fransızdilli mətbu orqanı "Le Carrefour" (Yol qovşağı) qəzetinin təsisçisi Zeynab Kazımovanın Fransanın "www.musulmansenfrance.fr" xəbər portalında "Ermənistan hələ də birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000 azərbaycanlının taleyi barədə məlumat verməkdən imtina edir" sərlövhəli məqaləsi yayımlanıb.**



MUSULMANS EN FRANCE
Le journal des musulmanes et musulmans en France

SOCIÉTÉ · INTERNATIONAL · ISLAM · FRANCE · ÊTRE MUSULMAN EN OCCIDENT · INTER-RELIGIEUX · RUBRIQUES · العربية · ENGLISH

La journaliste Zeynab Kazimova, directrice du seul journal francophone d'Azerbaïdjan, Le Carrefour, nous livre son analyse

L'ARMÉNIE REFUSE TOUJOURS DE DONNER DES INFORMATIONS SUR LE SORT DES 4 000 AZERBAÏDJANAIS DISPARUS DURANT LA PREMIÈRE GUERRE DU KARABAKH

Le parti "Contrat civil" de Nikol Pachinian a obtenu 54,21% des voix, ce que lui permettra de former tout seul un nouveau gouvernement et de reconduire le chef du gouvernement actuel. L'ex-journaliste Pachinian, 46 ans, porté au pouvoir en 2018 par une révolution pacifique contre les vieilles élites corrompues, a vu sa popularité record mise à mal par la déroute d'Erevan durant la guerre contre l'Azerbaïdjan, voisin et ennemi juré, à l'automne 2020.
Dans une déclaration datée du 18 juin 2021, le ministère arménien des Affaires étrangères a reproché à l'Azerbaïdjan de poursuivr les personnes accusées d'avoir commis des crimes de guerre ou des actes terroristes, ainsi que les mercenaires enrôlés par l'Arménie pendant la guerre de 44 jours.

*"L'Azerbaïdjan a à la fois le droit et l'obligation internationale de traduire ces personnes en justice en vertu du droit international, notamment des Conventions de Genève de 1949, et de la Convention internationale contre le recrutement, l'utilisation, le financement et l'instruction de mercenaires"* – précisait le Ministère de l'information azerbaidjanais dans un communiqué du 19 juin 2021, lequel ajoutait :

*"Nous rappelons au Ministère arménien des Affaires étrangères qu'un commando terroriste est entré sur le territoire azerbaïdjanais après la signature de la Déclaration trilatérale le 10 novembre 2020. Pendant cette incursion, 4 militaires azerbaïdjanais ont été tués et un civil a été grièvement blessé. Le citoyen libanais d'origine arménienne qui dirigeait le groupe avai participé, en tant que mercenaire étranger, aux attaques contre des militaires et des civils azerbaïdjanais pendant la guerre de 44 jours. Les deux autres citoyens arméniens sont accusés d'avoir torturé des civils et des militaires azerbaïdjanais pendant la première guerre du Karabakh. Nous tenons à souligner que les allégations concernant le secret du lieu des Arméniens détenus en Azerbaïdjan sont totalement fausses".*

AZƏRTAC xəbər verir ki, müəllif məqalədə əvvəlcə Ermənistan Xarici İşlər Nazirliyinin iyunun 18-də verdiyi açıqlamasında Azərbaycanı 44 gün davam edən müharibə zamanı Ermənistan tərəfindən qanunsuz olaraq döyüşənləri mühakimə etməkdə təqsirləndirdiyini bildirib və Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin bununla məlumatını diqqətə çatdırıb. Jurnalist Azərbaycan tərəfinin istintaqında olan ermənilərin 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyannamə imzalanandan sonra Azərbaycan ərazisinə daxil olan terror qruplaşmasının üzvü olduğunu qeyd edir. O, bildirir ki, bu qrupun təxribatçı fəaliyyəti nəticəsində 4 azərbaycanlı əsgər öldürülüb və bir mülki şəxs ağır yaralanıb.

"Təqsirləndirilən erməni əsilli Livan vətəndaşı, 44 günlük müharibə zamanı xarici hərbi muzdlu olaraq Azərbaycan hərbçilərinə və mülki şəxslərə qarşı döyüşlərdə iştirak edib. Digər iki Ermənistan vətəndaşı hazırda birinci Qarabağ müharibəsi zamanı Azərbaycanın mülki şəxslərinə və əsgərlərinə işgəncə verməkdə günahlandırılır", - deyə müəllif diqqətə çatdırır.

Müəllif xatırladır ki, Fransanın gündəlik nəşri olan "La Croix" qəzetinin mayın 28-dəki sayında Ermənistanın minalar qoymaqla məşğul olan döyüş mühəndislərinin olduğu bildirilib.

Zeynab Kazımova qeyd edir ki, Azərbaycan humanizm prinsipləri ilə hərəkət edərək indiyə qədər bəzi əsirləri Ermənistana verib. "Azərbaycan 44 günlük müharibədə əsir düşmüş 15 erməni əsgərini Ermənistanın Ağdam rayonunun 97 min tank əleyhinə və piyadaya qarşı mina xəritəsini vermək müqabilində azad edib. Ermənistan isə hələ də birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000 azərbaycanlının taleyi barədə məlumat verməkdən imtina edir. Torpaqlar azad edildikdən sonra Kəlbəcər rayonunun Başlıbel kəndində aşkarlanan kütləvi məzarlıq Ermənistanın törətdiyi müharibə cinayətlərinin və Ermənistan tərəfindən itkin düşmüş azərbaycanlılar haqqında məlumatların gizlədilməsinin bariz sübutudur", - deyə məqalədə vurğulanır.

Jurnalist yazır ki, beynəlxalq humanitar hüquq qanunları insan əleyhinə mina istifadəsini qadağan edir. Zeynab Kazımova ərazilərin ermənilər tərəfindən minalanmasının 22 mülki və 100-dən çox yaralı daxil olmaqla, 25-dən çox insanın ölümünə səbəb olduğunu, bu yaxınlarda iki azərbaycanlı jurnalistin - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və AzTV-nin əməkdaşı Sirac Abışovun Kəlbəcərdə ermənilərin basdırdığı minaya düşərək həyatını itirdiklərini xatırladıb.

Müəllif təəssüflə vurğulayır ki, yalnız Ağdamdakı mina xəritələrini Azərbaycana təhvil verən Ermənistan bir çox mina xəritələrini gizlədir və bu ölkənin yüksək vəzifəli şəxslərinin açıq şəkildə etiraf etdikləri kimi xəritələri Azərbaycana verməkdən imtina edir.

Məqalədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun "Anadolu" agentliyinə açıqlamasında səsləndirdiyi fikirlərə yer verən məqalə müəllifi yazır ki, nazir sərhəddəki gərginliyi dəyərləndirərək deyib: "Torpaqlarımız 30 ildir işğal altında olduğu üçün Azərbaycan sərhədlərinə nəzarət edə bilmirdi. Keçən il 44 günlük müharibə ilə ərazi bütövlüyümüzü bərpa etdik və Ermənistanla aramızda 398,7 kilometrlik sərhədə nəzarət təmin olundu. Tərəflər arasında sərhəd xətti məsələsində fikir ayrılığı, fərqli yanaşmalar var. Çünki sovet dönəmində sadəcə idarəedici sərhədlər vardı. Tərəflərdə xəritələr var və bu xəritələr bəzi yerlərdə fərqlilik göstərir. Azərbaycan məsuliyyətli davranır və sərhəddə daha böyük gərginlik olmaması üçün əlindən gələni edir".

Müəllif yazır ki, Nyu-Yorkdakı Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin salonunda and içərək, BMT Baş katibi vəzifəsinə ikinci dəfə təyin olunan Antonio Quterreş, dünyanın çox dəyişdiyinə baxmayaraq, BMT-nin vədlərinə sabit qaldığını, ancaq ölkələrin birlikdə çalışmasının lazım olduğunu söyləyib. Jurnalist qeyd edir ki, BMT Azərbaycan da daxil olmaqla, ölkələrin suverenliyini və sərhədlərinin toxunulmazlığını tanıyır. Ancaq Ermənistan həmişə olduğu kimi, Cənubi Qafqaz bölgəsinin inkişafına qarşı çıxmağa çalışır. "Ermənistanın manevrləri bölgədəki barışıq və əməkdaşlığı sabotaj etmək məqsədi daşıyır. Buna baxmayaraq, Şuşa Bəyannaməsinin imzalanması zamanı Türkiyə Prezidenti Ərdoğan bölgənin "Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan, Gürcüstan və İran arasında sülh və əmin-amanlıq bölgəsinə çevrilməsini arzuladı", - deyə məqalə müəllifi vurğulayır.

Sonda Zeynab Kazımova qeyd edir ki, Azərbaycan və Türkiyə Cənubi Qafqazı sülhsevər bir bölgə halına gətirmək üçün bütün səylərini göstərərək bölgədəki bütün ölkələri bu əməkdaşlıq prosesinə cəlb etmək istəyirlər. Bu səbəbdən də Ermənistan üçtərəfli razılaşmanın qalan bəndlərinin yerinə yetirilməsinə diqqət yetirməli, sərhədlərin delimitasiyası və demarkasiyası işində əməkdaşlıq etməli və Zəngəzur dəhlizinin açılmasında iştirak etməlidir. Nəhayət, bütün Qarabağ ərazisinə qoyulmuş mina xəritələrini təhvil verməlidir.

# Milli Məclisin növbəti iclası keçirilib



Dünən spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin növbədənkənar sessiyasında növbəti iclası keçirilib. Milli Məclisin sədri əvvəlcə 26 İyun - Silahlı Qüvvələri Günü münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, bu il Azərbaycan xalqı Silahlı Qüvvələr Gününü böyük sevinc və qürur hissi ilə qeyd edir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu xalqımızın qəhrəmanlıq tarixinə yeni parlaq səhifələr yazıb. Azərbaycan torpaqlarını 30 ildən bəri işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib. Əzəli və tarixi torpağımız olan Qarabağ mənfur düşmənin əsarətindən xilas edilib.

Tarixi ədalətin öz yerini tutmasının, dövlətimizin ərazi bütövlüyünün bərpa olunmasının xalqımızın özünəinamını qaytardığını və ruhunu təzələdiyini qeyd edən Sahibə Qafarova deyib: "Bu gün biz yurd yerlərimizə, doğma Qarabağa qayıdırıq. Bu haqqı bizə qəhrəman ordumuz, onun Ali Baş Komandanı qaytarıb. Biz şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını heç zaman unutmayacağıq. Xalqımız əmindir ki, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri nəinki Qarabağ bölgəsinin mənzərəsini kökündən dəyişəcək, həm də bütün Azərbaycanın inkişaf tarixində yeni bir dövr açacaq".

Sahibə Qafarova əminliklə vurğulayıb ki, Azərbaycan bayrağını Şuşada, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Ağdamda, Hadrutda, Qarabağın digər şəhər və kəndlərində dalğalandıran qalib xalqımız erməni vandalları tərəfindən viran qoyulmuş yaşayış məntəqələrimizi bərpa edib qurucu xalq olduğunu bir daha dünyaya nümayiş etdirəcək. Qeyd edib ki, bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgənin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Xalqımız həm Vətən müharibəsi dövründə, həm də bu gün, dinc dövrdə ölkəmizin hərbi təhlükəsizliyinin təmin edilməsində fədakarlıq göstərən hərbçilərimizlə haqlı olaraq fəxr edir,- deyən Milli Məclisin sədri əminlik ifadə edib ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə də inkişaf edəcək və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcək.

Sonra iclasda 12 məsələdən ibarət gündəlik təsdiqlənib. Cari məsələlərin müzakirəsində Milli Məclis sədrinin müavini Adil Əliyev, deputatlar Siyavuş Novruzov, Aydın Mirzəzadə, Elman Nəsirov, Musa Qasımlı, Aqiyə Naxçıvanlı, Qənirə Paşayeva, Şahin İsmayılov, Elşad Mirbəşiroğlu, Elşən Musayev, Cavid Osmanov Silahlı Qüvvələr Günü münasibəti ilə təbriklərini və xoş arzularını ifadə ediblər, bir sıra digər aktual məsələlərə münasibət bildiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Öncə ikinci oxunuşda plenar iclasa təqdim olunmuş 5 qanun layihəsi bu oxunuşun prosedur qaydalarına uyğun müzakirə edilib.

İclasda Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi (ikinci oxunuş) üzərində birinci oxunuşdan sonra aparılmış dəyişikliklər barədə ətraflı məlumat verib. Bildirib ki, layihə üzərindəki hər bir dəyişiklik qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılıb.

Parlamentdə geniş müzakirə aparılıb. Deputatlar Razi Nurullayev, Vahid Əhmədov, Fazil Mustafa, Etibar Əliyev, Vüqar Bayramov, Aydın Hüseynov, İltizam Yusifov, Şahin İsmayılov, Rauf Əliyev, Qənirə Paşayeva rəy və təkliflərini bildiriblər. Məsələ səsə qoyulub və 8 fəsil, 23 maddədən ibarət olan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Plenar iclasda sədr diqqətə çatdırıb ki, gündəlikdəki növbəti 2 qanun layihəsi mahiyyətcə bir-biri ilə bağlıdır və parlamentə bir zərfdə daxil olub.

Həmin layihələri ikinci oxunuşda təqdim edən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib ki, "Əmək pensiyaları haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsindən məqsəd əlilliyi olan pensiyaçı vətəndaşlarımızın sosial müdafiəsini gücləndirmək və təkrar ekspertiza müddətini ötürdüyü halda ilkin 6 ay müddətində həmin pensiyanın əlillik başlandığı müddətdən hesablanmasını təmin etməkdir. İclasda deputat Qüdrət Həsənquliyevin bu layihələrə dair rəyi dinlənildikdən sonra səsvermə keçirilib, hər iki qanuna təklif olunan dəyişikliklər ikinci oxunuşda təsdiqlənib.

Sonra iclasda parlamentə bir zərfdə daxil olmuş növbəti 2 qanun layihəsinə baxılıb. Öncə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məlumat verib. Bildirib ki, bu layihələr də vətəndaşların sosial müdafiəsini gücləndirmək xarakteri daşıyır. Layihəyə görə, vətəndaş 13 il dövlət qulluğunda işlədikdən sonra əgər onun 13 il çalışdığı orqan publik hüquqi şəxsə çevrilərsə, o halda həmin şəxs pensiyaya çıxarkən 2 il də dövlət tərəfindən dövlət qulluqçusu stajı tanınacaq və həmin vətəndaş dövlət qulluqçusu kimi pensiya almaq hüququ əldə edəcək.

Müzakirə zamanı deputatlar Qüdrət Həsənquliyev, Könül Nurullayeva, Fazil Mustafa qeyd və təkliflərini bildiriblər. Qanun layihəsi səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

"Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələni təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deputatların nəzərinə çatdırıb ki, bu layihə indicə qəbul olunan "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə üzvi surətdə bağlıdır, faktiki olaraq həmin normalar "Dövlət qulluğu haqqında" qanuna köçürülür.

Fikir mübadiləsində deputat Etibar Əliyevin çıxışı dinlənildikdən sonra bu qanun da ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki növbəti 7 qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub. İclasda Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədr müavini Çingiz Əsgərov və Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyev iştirak edirlər.

Gündəlikdəki növbəti məsələləri təqdim edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi faktiki olaraq məhkəmələrin, mediatorların, vətəndaşların və dövlət orqanlarının mediasiya institutunun fəaliyyəti ilə bağlı prosessual əsaslarını özündə ehtiva edir və "Mediasiya haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Məlumat dinlənildikdən sonra müzakirə aparılıb. Deputatlar Razi Nurullayev, Müşfiq Cəfərov, Aqiyə Naxçıvanlı, Siyavuş Novruzov rəy və təkliflərini diqqətə çatdırıblar. I vitse-spiker çıxışlara münasibət bildirib, suallara aydınlıq gətirib. Qanun layihəsi səsə qoyulub və birinci oxunuşda qəbul olunub. Həmçinin "Mediasiya haqqında" qanunun bir sıra maddələrinə təkmilləşdirmə məqsədi ilə edilən dəyişikliklər də (birinci oxunuş) parlamentdə razılıqla qarşılanıb. Sonra iclasda Mülki Prosessual Məcəlləyə, İnzibati Prosessual Məcəlləyə, "Dövlət rüsumu haqqında" qanuna və İnzibati Prosessual Məcəlləyə təklif olunan dəyişikliklərə dair 4 qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Bildirilib ki, bu qanun layihələri Hüquq siyasəti və dövlət quruculuğu komitəsində, həmçinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində geniş müzakirə olunub.

Parlamentdə qanun layihələrini geniş şərh edən Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli xatırladıb ki, 2019-cu ildə Azərbaycan Prezidenti tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman imzalandı. Həmin fərmanın icrası ilə bağlı parlamentə aid olan hissə artıq uğurla həyata keçirilib, yəni qanunvericilik sahəsində islahatlarda Prezidentin tövsiyəsi əsasında çoxlu qanunlar qəbul edilib. Apellyasiya və Ali Məhkəmə instansiyalarına hakimlər təyin olunub. Yeni kadrların iş keyfiyyəti də fərqlidir.

Komitə sədri deyib ki, bu layihə də həmin fərmanın icrasının davamı kimi qəbul olunmalıdır. Oktyabr ayının 1-də qanunun qüvvəyə minməsi nəzərdə tutulur. Layihədə konseptual yeni fikir ondan ibarətdir ki, tam yazılı icraat institutu yaradılır. Bu məsələ günün zərurətidir. Kasasiya instansiyası işin hüquqi tərəfinə qiymət verir, yeni sübutlar təqdim olunur və məhkəmə buna hüquqi qiymət verməlidir. İşin faktiki halları artıq birinci və apellyasiya instansiyasında araşdırılıb.

Sonra iclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Qanuna dəyişikliklərlə bağlı məsələni şərh edib. Bildirib ki, təklif olunan dəyişikliklər əsasən üç istiqaməti özündə ehtiva edir: ödənilən dövlət rüsumunun məhkəməyə verilən iddianın məbləğindən diferensial asılılığı, yığılan rüsumların bir hissəsinin məhkəmə aparatı işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi, ilk dəfə tətbiq olunan özəl ekspertiza qurumlarının fəaliyyətinin tənzimlənməsi və bununla bağlı şəhadətnamənin rüsumunun müəyyən olunması.

Tahir Mirkişili beynəlxalq təcrübədə bu məsələlərin necə tənzimləndiyi barədə də danışıb. Plenar iclasda aparılan müzakirələrdə deputatlar Zahid Oruc, Fazil Mustafa, Azay Quliyev, Qənirə Paşayeva, Nurlan Həsənov, Əziz Ələkbərov, Etibar Əliyev irad və təkliflərini diqqətə çatdırıblar.

Ali Məhkəmənin Sədr müavini Çingiz Əsgərov deputatları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirib.

Müzakirələrdən sonra Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş), "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin növbəti iclası başa çatıb.

## Şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara və müharibə əlillərinə xidmətlər vahid məkandan həyata keçiriləcək



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin yeni Fərmanı ilə şəhid ailələri üzvlərinə, müharibədə xəsarət almış hərbi qulluqçulara və müharibə əlillərinə xidmətlər vahid məkandan həyata keçiriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) AZƏRTAC-a bildirilib ki, bu məqsədlə vahid əlaqələndirmə mərkəzləri yaradılacaq və mərkəzlərin fəaliyyəti ilkin mərhələdə "DOST" mərkəzlərində təşkil olunacaq.

Prezident İlham Əliyevin imzaladığı yeni "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2021-ci il tarixli 25 iyun Fərmanı qeyd edilən kateqoriyalara aid vətəndaşlara xüsusi diqqət və qayğının davamıdır. Fərmanla həmin şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzləri yaradılacaq.

Məqsəd onlara əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə, eləcə də digər sahələrdə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğunun təmin olunması, dövlət orqanlarının fəaliyyətində səmərəliliyin, şəffaflığın artırılması, habelə xidmətlərin vahid məkandan təxirəsalınmaz və operativ icrasını təmin olunmasıdır.

Fərmanla "Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərində göstərilən xidmətlərin və həmin xidmətləri göstərən dövlət orqanlarının (qurumlarının) siyahısı" və vahid əlaqələndirmə mərkəzlərində xidmət göstərilməsi Qaydası da təsdiq edilib. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmin siyahıda nəzərdə tutulmuş dövlət orqanlarının (qurumlarının) həmin siyahıda göstərilmiş xidmətlər üzrə fəaliyyətinin əlaqələndirilməsi və müraciətlərin icra vəziyyətinin monitorinqi üzrə əlaqələndirici orqan qismində müəyyən olunub.

Sənədə əsasən, vahid əlaqələndirmə mərkəzlərində xidmətlər "bir pəncərə", həmçinin operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında göstəriləcək və birbaşa (yerində), "Çağrı mərkəzi" vasitəsilə və səyyar formada təşkil ediləcək. Xidmətlər bir-biri ilə qarşılıqlı əlaqədə, informasiya texnologiyalarından geniş istifadə edilməklə həyata keçiriləcək.

Mərkəzlərin fəaliyyəti ilkin mərhələdə Nazirliyin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST Agentliyinin) "DOST" mərkəzlərində, daha sonra xidmət göstəriləcək şəxslərin sayı nəzərə alınmaqla, digər inzibati ərazi vahidləri üzrə Nazirliyin yerli qurumlarının inzibati binalarında təşkil olunacaq. Xidmət göstərəcək dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri arasında əlaqələndirmə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə həyata keçirilməklə, üç ay ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemində müvafiq dəyişikliklər edilməsi təmin ediləcək.

# Vətən sənə əmanətdir, /

## Ordun varsa, yurdun var

26 iyun - Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edirik. Müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyümüzün qarantı olan Ordumuzun şücaəti, qəhrəmanlığı harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını sevindirməklə yanaşı, vaxtilə itirilmiş qürurumuzun 44 günlük Vətən müharibəsində Zəfərimizlə bərpasından sonra başı uca, alnı açıqdır. Bu şanlı Qələbənin əsas qəhrəmanı ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan Ordusudur. Tarixi Zəfərin mübarək, Azərbaycan və Azərbaycan xalqı! Əbəs yerə deyilmir ki, ordun varsa, yurdun da var. Rəs-



Vüqar Rəhimzadə,
"91-lər"in üzvü, siyasi elmlər doktoru, "İki sahil" qəzetinin baş redaktoru,
Əməkdar jurnalist

mi Bakı daim ən yüksək tribunalardan bəyan edirdi ki, torpaqlarımızın işğalı ilə heç zaman barışmayacaq, bir qarış torpağımızı belə düşmənə verməyəcəyik.

Azərbaycan xalqı bu gün Silahlı Qüvvələrinin gücü, qüdrəti sayəsində bu tarixi günü - 26 İyun Azərbaycan Silahlı Qüvvələri Gününü xoş ovqatla, qürurla, ərazi bütövlüyümüzün bərpası, Dağlıq Qarabağ münaqişəsinin tarixə qovuşub yeni səhifənin açılması fonunda qeyd edirik. Amma hər bir tarixi gün keçilən yolun təhlilini bir zərurət kimi qarşıya qoyur.

Azərbaycan Ordusunun şərəfli tarixi ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Tarixi paralellər fonunda 1993-cü ildə Ulu Öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra digər sahələr kimi, ordu quruculuğunda da mühüm uğurlara imza atıldığını, davamlı işlər görüldüyünü qeyd edə bilərik. Azərbaycan Ordusu özünün inkişaf dövrünü yaşadı, maddi-texniki bazasını daha da möhkəmləndirdi. Müstəqilliyimizin ilk illərində ölkəmizə səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutan şəxslərin rəhbərlik etməsi, bir sözlə, hakimiyyətsizlik bütün sahələrdə uğursuzluqlara yol açmışdır. Ölkədə xaos, anarxiya, özbaşınalıqlar, silahlı qruplaşmalar geniş vüsət almışdır. Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının ifadəçisi kimi çıxış edərək, ərazilərimizin biri-birinin ardınca işğalına səbəb olmuşdur. Ümummilli Lider hakimiyyətə qayıdışı ilə Azərbaycanı yaşadığı bu böhrandan, qarşıdurmalardan, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Azərbaycanda müasir ordu quruculuğunun əsası məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Qısa müddətdə Ordumuz qarşısına qoyulan hər bir vəzifəni yerinə yetirməyə qadir olan mütəşəkkil hərbi qüvvəyə çevrildi.

Müharibə şəraitində yaşayan ölkə üçün güclü, qüdrətli Ordunun olması olduqca vacibdir. Ümummilli Lider bildirirdi ki, sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordun olmalıdır. Bu məqamı da qeyd edək ki, ordu quruculuğu istiqamətində mühüm addımlar ulu öndər Heydər Əliyevin hakimiyyətinin birinci dövründə də əsas diqqət göstərilən məsələ olub. Belə ki, Azərbaycanı gələcəkdə müstəqil görmək istəyən Ümummilli Lider bu istiqamətdə mühüm addımlar atmışdır ki, bunlardan da biri gərgin səylər nəticəsində Cəmşid Naxçıvanski adına hərbi liseyin yaradılması oldu. Bu gün böyük fəxrlə qeyd edirik ki, hazırda Azərbaycan Ordusunda xidmət edən zabitlərin böyük əksəriyyəti bu hərbi liseyin yetirmələridir.

1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ordu quruculuğu sahəsində mövcud vəziyyətin yaxşılaşdırılmasına, ordunun maddi-texniki bazasının formalaşdırılması və gücləndirilməsinə, gənclərdə vətənpərvərlik hissinin daha da yüksəlməsinə böyük stimul oldu. Qeyd edək ki, müstəqilliyimizin ilk illərində ölkədəki mövcud vəziyyət orduda xidmətdən yayınma hallarının, fərariliyin artmasına səbəb olmuşdur. 1993-cü ildən sabitliyin yaradılması, orduya diqqət və qayğı bu halları aradan qaldırdı, Azərbaycan gəncləri böyük əhval-ruhiyyə ilə "Vətən mənə oğul desə nə dərdim..." deyib ordu sıralarına qoşulur, torpağının, Vətəninin keşiyində şərəflə dayanırdı.

Ümummilli lider Heydər Əliyev bildirirdi: "Bizim məqsədimiz müharibə etmək deyil. Ordumuzun yaranması, formalaşması, möhkəmlənməsi yalnız və yalnız Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını təmin etmək üçün lazımdır. Biz düşdüyümüz vəziyyətdən sülh yolu ilə çıxmaq istəyirik." 1994-cü il mayın 12-də dahi şəxsiyyət Heydər Əliyevin böyük səyləri nəticəsində Ermənistanla atəşkəs sazişinin imzalanması ölkəmizin sülh siyasətinə sadiqliyini dünyaya nümayiş etdirməklə yanaşı, digər sahələrin, o cümlədən ordunun da inkişafına geniş yol açdı. Azərbaycan Ordusunun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması, maddi-texniki təchizatının yaxşılaşdırılması, o cümlədən hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi prioritet istiqamət kimi dövlət siyasətinin əsasında dayandı.

## Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməyə hazır olduğunu hər an bəyan edirdi

Son 17 ildən artıq dövrdə Heydər Əliyev siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev digər sahələr kimi, ordu quruculuğunda da mühüm tədbirlər həyata keçirərək bugünkü Zəfərimiz üçün yaradılan möhkəm təmələ yeni əlavələr etdi. Cənab İlham Əliyev 2003-2021-ci illəri ərazi bütövlüyümüzün bərpasına, Dağlıq Qarabağ münaqişəsinin həllinə hazırlıq dövrü kimi xarakterizə edir. Bu illər ərzində Azərbaycan bütün sahələrdə gücləndi, münaqişənin həlli üçün möhkəm hüquqi baza yarandı.

Ölkəmizin iqtisadi qüdrəti ordu quruculuğu sahəsində davamlı addımlara, Fərman və sərəncamların imzalanmasına yol açdı. Bu illər ərzində keçirilən Beynəlxalq Müdafiə sərgilərində, hərbi paradlarda Azərbaycan hansı imkanlara malik olduğunu dünyaya nümayiş etdirirdi. 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin, eyni zamanda, Bakının işğaldan azad edilməsinin 100 illiyi münasibətilə keçirilən hərbi paradlarda dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük inamla, əminliklə qeyd etdiyi hədəflər reallığa çevrildi. Ölkə Prezidenti bəyan etmişdir: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orda qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək."



Azərbaycan Ordusu möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bu istəyimizi, arzumuzu reallığa çevirdi.

2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt qələbələri Azərbaycan Ordusunun hansı imkanlara malik olduğunu göstərmişdir. Görünür Ermənistan və ona havadarlıq edən dövlətlər Azərbaycan Silahlı Qüvvələrinin bu dərsindən nəticə çıxarmadı. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən əks hücumlarının qarşısı Azərbaycan Ordusu tərəfindən böyük qətiyyətlə alındı. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışını yüksək əhval-ruhiyyə ilə cavablandıran ordumuz düşmənə layiq olduğu yeri göstərdi.

Zəfərimiz bu illər ərzində Azərbaycanın qazandığı uğurların zirvəsi kimi dəyərləndirilir. Bu illər ərzində bütün sahələrdə uğurlara imza atan Azərbaycanın yeganə problemi olan Dağlıq Qarabağ münaqişəsi idi. Prezident İlham Əliyev bütün beynəlxalq səviyyəli tədbirlərdə Azərbaycanın haqlı mövqeyini bəyan edərək, dünyaya bu çağırışı edirdi ki, beynəlxalq hüququn norma və prinsiplərinin icrası üçün vahid mexanizm olmalı və bütün dövlətlərə eyni şəkildə tətbiq edilməlidir. Azərbaycan dövləti bu çağırışı ilə ədaləti, beynəlxalq hüququ müdafiə etməklə yanaşı, ikili siyasətin hansı problemlərə yol açdığını açıqlayırdı. Dağlıq Qarabağ münaqişəsinin həlli prosesinin 30 ilə yaxın uzanması da bu ikili siyasətin nəticəsi idi.

Reallıq bu idi ki, Azərbaycanın təbliğatı real faktlara, tarixi həqiqətlərə əsaslanır, bütün hallarda Ermənistan fakt qarşısında aciz duruma düşürdü. Son 17 ildən artıq dövrdə Azərbaycanın diplomatik sahədə qazandığı uğurlara diqqət yetirmək kifayətdir. Azərbaycan regionda və dünyada söz sahibi olduğunu bir daha təsdiqlədi. Azərbaycan sözünün imzası qədər dəyəri olduğunu atdığı hər addımında nümayiş etdirdi.

Beynəlxalq hüququn müdafiəsi ilə yanaşı, ordu quruculuğu sahəsində də davamlı addımları ilə diqqət çəkən Azərbaycan Ermənistanın sərsəm bəyanatları ilə üz-üzə qalırdı. Dövlətimizin ordu quruculuğu sahəsində atdığı addımları, hərbi büdcəsini artırmasını sülh danışıqlarından imtina kimi dəyərləndirən Ermənistan hakimiyyəti bildirirdi ki, rəsmi Bakı münaqişənin sülh yolu ilə həllində maraqlı deyil. İllər keçdikcə danışıqları imitasiya naminə apardığı məlum olan Ermənistanın diqqəti özündən uzaqlaşdırıb Azərbaycanı günahkar kimi təqdim etməsi hər zaman dövlətimizin sərt reaksiyası ilə qarşılanıb. Azərbaycanın hərbi büdcəsini artırması, müdafiə qabiliyyətini gücləndirməsinin suveren haqqı olduğunu bildirən dövlətimizin başçısı bütün sahələrdə inkişafın getdiyini, ordunun bu tərəqqidən geri qalmasının mümkünsüzlüyünü hər zaman bəyan edib. Son 17 ildən artıq dövr Azərbaycanın tarixində torpaqlarımızın işğaldan azad edilməsi üçün səylərin artırılması, Ermənistanın ərköyünlüklərinin lazımi səviyyədə cavablandırılması, rəsmi Bakının sərt bəyanatlar səsləndirməsi ilə yadda qalıb. Son bəyanat isə Ermənistanın baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" sərsəm xülyasına cavab oldu. Dövlətimizin başçısı, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı bəyan etdi: "Qarabağ Azərbaycandır və nida işarəsi"

Dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən bu illər ərzində Ordumuza, onun şəxsi heyətinə göstərilən diqqət və qayğının təməlində bir ali məqsəd dayanırdı- Torpaqlarımız erməni işğalçılarından azad edilsin, dövlətimizin ərazi bütövlüyü, soydaşlarımızın pozulmuş hüquqları bərpa olunsun, regionda sülh, əmin-amanlıq bərqərar edilsin. Dağlıq Qarabağ problemini ümumilikdə regionda iqtisadi tərəqqiyə, təhlükəsizliyə böyük maneə kimi dəyərləndirən, qətnamələrində ədalət meyarını öndə saxlayıb, beynəlxalq hüququn norma və prinsiplərinin qorunmasına çağırış edən beynəlxalq təşkilatların, dövlətlərin işğalçı Ermənistana "dur" demələrinin zamanı çoxdan çatsa da işğalçıya hansısa bir təzyiqin göstərilməsinin müşgülə çevrilməsi təəccüb doğurmaya bilməzdi. 30 ilə yaxın dövrdə Ermənistana "dur" deyə bilməyən, BMT Təhlükəsizlik şurasının qətnamələrini kağız üzərində saralmasına səbəb olan dövlətlərin, beynəlxalq təşkilatların görə bilmədiklərini Azərbaycan Ordusu 44 günlük İkinci Qarabağ müharibəsində elədi. BMT Təhlükəsizlik şurasının qətnamələrini təkbaşına icra edən Azərbaycan Ordusu dünyaya mesajlarını ünvanladı-Beynəlxalq hüquq mövcuddur, onun icrası dövlətlərin maraqları ucbatından çətinə düşüb. Dövlətlər maraqlarını bir tərəfə qoyub münaqişəli məsələlərə ədalət meyarından yanaşsalar həllini uzun müddət gözləməz, regionda və dünyada sülh, əmin-amanlıq, təhlükəsizlik olar.

Azərbaycanın Vətən müharibəsində Qələbəsini şərtləndirən əsas amillər bunlardır: iqtisadi güc, güclü ordu, milli həmrəylik və birlik, beynəlxalq səviyyədə uğurlar və bütün bunları təmin və təşkil edən, bütün resursları vahid amal uğrunda səfərbər etməyi bacaran

# Azərbaycan əsgəri!



İlham Əliyev kimi liderin olması. Gənclərimizdə torpaq, Vətən sevgisi bu amillər sırasında xüsusi yer alır. 2003-cü ildən bu yana böyüyən gənclər torpaqlarımızın işğaldan azad edilməsində torpaq sevgisini nümayiş etdirdilər.

## Şanlı Ordumuzun 44 günlük müharibəsi XXI əsrin müharibəsidir

Dövlətimizin başçısı İlham Əliyev "Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən dəfələrlə demişdim ki, o cümlədən hərbçilərlə görüşlərimdə, çoxsaylı görüşlərimdə, əgər düşmən torpaqlarımızdan öz xoşu ilə çıxmasa, məcbur edəcəyik onları, qovacağıq torpaqlarımızdan, güc amili öz rolunu oynayacaqdır və belə də oldu, 44 günlük müharibənin hər bir günü zəfər günü idi" fikirləri ilə Vətən müharibəsində Qələbəmizi şərtləndirən amilləri, həmçinin Zəfərimizin doğurduğu əks-sədanı, dünyaya çağırışları və qarşıdakı dövr üçün prioritetləri özündə ehtiva edir.

Dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycanın Silahlı Qüvvələrinin əsgər və zabitləri nəyə qadir olduqlarını qazandıqları zəfərləri ilə bəyan etdilər. Müharibələr tarixində təkrarolunmaz hərbi taktika və strategiyası ilə diqqət çəkən ordumuz təchizatı, nizam-intizamı, hərbi hazırlığı ilə nümunə göstərildi. Bir çox ölkələrin hərbi ekspertlərinin də qeyd etdikləri kimi, ən müasir Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi rəşadət XXI əsrin döyüş təcrübəsidir.

Möhtərəm Prezidentimiz İlham Əliyev daim çıxışlarında bəyan edirdi ki, gün gələcək üçrəngli bayrağımız Şuşada dalğalanacaq. O gün uzaqda deyil.

İndi Azərbaycan bayraqları təkcə Şuşada deyil, işğaldan azad olunmuş 6 şəhərdə, 5 qəsəbədə, 300-ə yaxın yaşayış məntəqəsində dalğalanır. Bu Zəfərin müəllifi Ali Baş Komandan, Azərbaycan Ordusu, qəhrəman əsgər və zabitlərimizdir. Torpaqlarımızı düşmən əsarətindən öz gücü, bacarığı ilə azad edən əsgərlərimiz düşməni diz çökməyə məcbur etdi, Ermənistan rüsvayçı təslimçilik aktını imzaladı. Qarabağın ürəyi, mədəniyyət paytaxtımız Şuşanın işğaldan azad edilməsi Ermənistanın diz çökməsi ilə nəticələndi. Belə ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı Azərbaycanın hərbi-siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təqdimatı oldu. Azərbaycan Ordusu "yenilməz erməni ordusu" mifini darmadağın etdi. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə dövlətimizin başçısı İlham Əliyev xalqa bütün müraciətlərində Qələbə xəbərlərini çatdırmaqla yanaşı, məhv edilmiş, yaxud qənimət kimi götürülmüş Ermənistanın hərbi texnikasının, silah-sursatının siyahısını təqdim edirdi. Bu əminlik də ifadə edilirdi ki, Zəfər paradında bunlar Azadlıq meydanında nümayiş olunacaq.

Zəfərimiz "Nəyi nə vaxt, necə edəcəyimizi bilirik" söyləyən Müzəffər Ali Baş Komandan İlham Əliyevin Sərkərdəlik qətiyyətinin məntiqi nəticəsi idi. Cənab İlham Əliyev Vətən müharibəsi dövründə xarici mətbuata çoxsaylı müsahibələrinin hər birində bu məqamı xüsusi bəyan edirdi ki, 30 ilə yaxın dövrdə havadarları işğalçı Ermənistana vaxt qazanmaq üçün danışıqlar prosesinin imitasiya naminə aparılmasına dəstək olub. Bu diqqətin nəticəsi olaraq işğalçı dövlət yeni ərazilər uğrunda planlar hazırlayıb.

2020-ci ildə Ermənistan silahlı qüvvələrinin 3 dəfə təxribat cəhdləri də onların yeni ərazilər uğrunda mübarizələrinin göstəricisi idi. Sentyabrın 27-də baş verən hərbi təxribat Azərbaycan dövlətinin, xalqının səbrini daşırdı. "Artıq irəli" deyib düşməni yerində oturtmaq zamanı idi ki, güclü, qüdrətli Azərbaycan Ordusu missiyasını şərəflə yerinə yetirdi, işğalçı dövlətə elə bir dərs verdi ki, tarix boyu unuda bilməz. Azərbaycanın dünyaya səs salan "dəmir yumruq" əməliyyatının uğurlu nəticəsi bugünkü Zəfərimiz, Azərbaycanın regionda yeni reallıqlar fonunda sülhün, təhlükəsizliyin təmin olunması üçün əməkdaşlıq formatlarının yaradılmasıdır.

Bu Qələbə həm də Azərbaycan -Türkiyə qardaşlığının sarsılmazlıq nümunəsi kimi tarixə yazıldı. 44 gün davam edən müharibədə xalqımıza mənəvi, siyasi dəstəyini əsirgəməyən Türkiyə əsrlərdən bəri qorunub saxlanılan qardaşlığa sadiq qaldı. Bakının erməni işğalından azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda "Yüz il bundan əvvəl biz bir yerdə idik, bu gün də biz bir yerdəyik. Yüz il bundan əvvəl Nuru Paşanın komandanlığı altında yeni yaradılmış Azərbaycan Milli Ordusu könüllülərlə birlikdə Bakını işğalçılardan azad etdi" söyləyən, hər iki qardaş ölkə arasındakı hərbi əməkdaşlığı, keçirilən birgə hərbi təlimləri yüksək dəyərləndirən Prezident İlham Əliyev qardaş ölkənin 44 günlük İkinci Qarabağ müharibəsində dəstəyini daim önə çəkərək, bu birliyin, həmrəyliyin Zəfərimizdə stimulverici amil olduğunu xüsusi qeyd edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan tək deyil" bəyanatı ilə dünyaya ən mühüm mesajları çatdırdı.

Tarixi Zəfərimizin dünyaya təqdimatı olan 10 dekabr Zəfər paradı da bu birliyi özündə əks etdirdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəfər Paradında iştirakı hər bir Azərbaycan vətəndaşını qürurlandırdı, sevindirdi. "Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk" söyləyən Prezident İlham Əliyev işğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculq işlərini də qardaş ölkənin dəstəyi ilə birgə həyata keçirəcəyimizə əminliyini ifadə etdi.

Hərbi Paradda, onun ardınca dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü ilə yaradılan Hərbi Qənimətlər Parkında Ermənistan silahlı qüvvələrinin məhv edilmiş, yaxud qənimət kimi götürülmüş hərbi texnikasının nümayişi işğalçı dövlətə və 30 ildə dəstək göstərib münaqişənin həlli prosesini uzadan dövlətlərə ciddi mesaj oldu.

Döyüş bacarığı, hazırlığı, mübarizliyi ilə dünyanın hərb tarixinə yeni səhifə yazan Azərbaycan Ordusu ulu öndər Heydər Əliyevin "Biz hərb istəmirik, amma hərbə hazırıq" sözlərini reallaşdırdı. Əvvəldə də qeyd etdiyimiz kimi, ordumuzun döyüş əməliyyatları XXI əsrdə müharibə aparılması nümunəsi adlandırılır. Ölkə vətəndaşlarının intizarla gözlədikləri Prezident İlham Əliyevin xalqa müraciətlərində və beynəlxalq hərbi ekspertlərin açıqlamasında qeyd olunduğu kimi, çətin relyefə malik, sıldırım qayalarla əhatə olunmuş Şuşa uğrunda mübarizədə qalib gələn Azərbaycan Ordusunun döyüş təcrübəsi müstəsna hal, dünya hərb tarixində unikal əməliyyat adlandırılaraq beynəlxalq səviyyədə öyrənilir.

Bu məqamı da xüsusi qeyd etməliyik ki, Azərbaycanın ordu quruculuğu sahəsində qazandığı uğurlar beynəlxalq təşkilatların hesabatlarında da xüsusi yer alır. Belə ki, Ordumuz "Qlobal atəş gücü" indeksi üzrə 64-cü yerdə qərarlaşaraq, siyahının 111-ci sırasında yerləşən Ermənistanı qabaqlayır. Azərbaycan, həmçinin dünyanın ən güclü 50 ordusu sırasında yer alıb. Təbii ki, bu dəyərləndirmələr dövlətimizin orduya diqqət və qayğısının, əsgərlərimizin peşəkarlığının, döyüş ruhunun artırılması istiqamətində atılan addımların uğurlu nəticəsidir. Heç bir sahədə Azərbaycanla rəqabət aparmaq imkanında olmayan Ermənistanın ordusu fərarilərdən, qorxaqlardan ibarətdir. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə erməni əsgərlərinin silah-sursatla yanaşı, papaqlarını qoyub qaçmaları, gənclərin koronavirus infeksiyasına yoluxma adı altında saxta sənədlərlə ordudan yayınmaları, yaşlı nəslin, ən əsası qadınların belə orduya cəlb edilməsi işğalçı dövlətdə yaşanan acınacaqlı durumun aydın mənzərəsini təqdim edirdi. Bu statistika açıqlandı ki, qəhrəmanlıq göstərən Azərbaycan əsgər və zabitləri qarşısında ağ bayraq qaldıran, hərbi kapitulyasiyaya məcbur olan Ermənistan ordusunda fərarilik edənlərin sayı 10 mini ötüb. Əsgərini, hərbi texnikasını döyüş meydanında qoyub qaçan, zabit şərəfini Azərbaycan əsgərinin ayaqları altına atan hərbçilərin dönüklüyünü, qorxaqlığını, Ermənistan ordusundakı vəziyyətin acınacaqlı olduğunu övladlarının meyitini ala bilməyən ermənilər özləri belə təsdiqləyirdilər. Döyüş meydanında, bütün dünya qarşısında rəzil olan ermənilərin bundan sonra bu damğa ilə yaşayacaqlarını önə çəkən dövlətimizin başçısı İlham Əliyev Ermənistanı uğursuz ölkə adlandırır. Bu uğursuzluğa səbəb işğalçılıq siyasətidir.

Azərbaycan Ordusu işğalçıya qalib gəlməklə bölgədə erməni faşizminin belini qırdı. "Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik. Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq... Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər ki, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə" söyləyən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsində xarici mətbuata müsahibələrində göstərdiyi qətiyyət, qərəzli suallara məntiqli cavabları, dünya siyasətinin təhlili baxımından verdiyi açıqlamalar lider qətiyyətinin təqdimatı oldu.

Hər zaman bütün bayramlarda, xüsusilə 26 İyun - Azərbaycan Silahlı Qüvvələri Günündə xalqımıza təbrikdə bu arzu ifadə edilirdi ki, Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarımızda dalğalansın. Dövlətimizin qətiyyəti, Ordumuzun gücü, qüdrəti sayəsində bu arzumuz reallığa çevrildi.

## Zəfər milli ruhun oyanışı, xalqımıza özünəqayıdış sevincini yaşadan şəhidlərimizin ruhu, qazilərimizin rəşadətidir

Xalqımıza qürur verən Zəfərimizin müjdəçisi olan bayrağımıza bürünən şəhidlərimizin ruhları rahatdır. "Torpaq, əgər uğrunda ölən varsa Vətəndir" tezisi hər birimizin həyat amalına çevrilməli, şəhidlərimizin xatirəsi daim qəlbimizdə yaşamalı, onların həyat yolu gənclərimizə vətənpərvərlik məktəbi olmalıdır. Şəhidlərimizin ruhu qarşısında baş əyir, onlara Allahdan rəhmət, qazilərimizə şəfa diləyirik.

Şəhid ailələrinə, qazilərə dövlətin diqqət və qayğısı davamlıdır. Cənab İlham Əliyevin tarixi Qələbəmizdən sonra ilk olaraq yaralı hərbçilərlə görüşməsi, onlara minnətdarlığını ifadə etməsi, bu Qələbənin qazanılmasında onların rolunu yüksək dəyərləndirməsi də bunun bariz nümunəsidir. Bu kateqoriyadan olan insanlar hər birimizin sevgi ilə yanaşdığımız ünvanlardır. Zəfərimizdən sonra, eyni zamanda, Azərbaycan Silahlı Qüvvələri Günü ərəfəsində dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə hərbçilərimizin Milli Qəhrəman adına layiq görülmələri, orden, medallarla təltif olunmaları qürurvericidir.

Ölkə Prezidentinin 25 iyun 2021-ci il tarixli "İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında Sərəncamı da ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Ali Baş Komandanın bu mühüm addımı Silahlı Qüvvələrimizin bütün stukturlarında çalışan hərbiçilərimizə diqqət və qayğının bariz nümunəsidir.

Daim görüşlərində, çıxışlarında "Bu tarixi missiyanı siz icra etmisiniz - Azərbaycan əsgəri, Azərbaycan giziri, Azərbaycan zabiti icra edib. Əlbəttə ki, bizim güclü ordumuz var, texniki təchizat da yüksək səviyyədədir. Bütün dünya gördü ki, biz hansı texniki imkanlardan istifadə edirik. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir" bildirən Prezident İlham Əliyev bu fikri də böyük qürur hissi ilə qeyd edir ki, Azərbaycan xalqına qələbə yaraşır. Bu tarixi anı yaşadığı üçün xoşbəxtdir.

Bu əlamətdar gün münasibətilə Müzəffər ordumuzun Ali Baş Komandanı İlham Əliyevi, ona hər zaman dəstək olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı, rütbəsindən, daşıdığı vəzifəsindən asılı olmayaraq bütün hərbçilərimizi təbrik edir, Vətəni qorumaq kimi müqəddəs məsuliyyətli vəzifələri layiqincə yerinə yetirmələrində uğurlar arzulayırıq. Vətən sənə əmanətdir, Azərbaycan əsgəri!

# 44 günlük müharibənin şanlı Qələbəsi



*Vətən müharibəsində igidlik və şücaət göstərmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları dövlət başçısının sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar*






Dünya hərb tarixində yeni səhifə olan Azərbaycanın 44 günlük Vətən müharibəsindəki qələbəsini Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, xalq-iqtidar birliyi kimi amillər şərtləndirir. Hərb meydanında igidlik göstərən, vətən torpağını düşməndən qanı, canı bahasına azad edən Azərbaycan bayrağını uca tutan vətən oğullarının bu qələbənin qazanılmasında rolu danılmazdır. Belə igidlik göstərmiş vətən övladları yüksək adlara, mükafatlara, ehtirama layiqdirdir.

Bildiyimiz kimi, Vətən müharibəsində şücaət göstərən igid oğulların mükafatlandırılması məqsədi ilə Azərbaycan Prezidenti tərəfindən yeni orden və medallar və fəxri adlar "Vətən müharibəsi qəhrəmanı" adı, "Qarabağ" ordeni, "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalı, "Füzulinin azad olunmasına görə" medalı, "Vətən müharibəsi iştirakçısı" medalı, "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalı və s. təsis edildi. Bu dövlətimizin mərd, mübariz, vətənpərvər, igid övladlarına olan diqqətin və qayğının təzahürüdür. Vətən müharibəsində xalqımızın igidlik göstərmiş övladları yüksək adlara, mükafatlara layiq görülmüşlər.

Dövlət başçısının 24 iyun tarixində imzaladığı sərəncamları ilə 76 min 349 hərbi qulluqçu müxtəlif orden və medallarla təltif edilib. Belə ki, Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar. Həmin sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olunmasına görə", 3522 nəfər "Ağdamın azad olunmasına görə", 4225 nəfər "Kəlbəcərin azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 isə "Hərbi xidmətlərə görə" və digər medallarla təltif ediliblər.

Onu da vurğulayaq ki, Prezidentin digər Sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunublar. Dövlət başçısının digər Sərəncamı ilə işğaldan azad olunmuş ərazilərdə Müdafiə Nazirliyinin xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Prezidentin əlavəsi də müəyyən edilib. Sərəncama əsasən, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirilmək məqsədilə həmin hərbçilərin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, Xüsusi Təyinatlı Qüvvələrdə və əməliyyat briqadalarında xidmət edən hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilib. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların hərbi xidmət müddəti və xidmət yeri nəzərə alınmaqla aylıq vəzifə maaşlarının 20-60 faizi həcmində 5 (beş) il müddətində Müdafiə Nazirliyi tərəfindən ödəniləcək. Müdafiə və Maliyyə nazirliklərinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

Əlbəttə ki, bu sayda insanın orden və medallara layiq görülməsi, onlara diqqətin artması vətən oğullarının qəhrəmanlığına olan münasibətdir. Ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıq göstərmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları bu ehtiram və diqqətə layiqdirlər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Türkiyə Azərbaycanla saziş imzalamağa yaxındır



Türkiyə bir sıra ölkələrlə valyuta mübadiləsi təminatına dair danışıqlar aparır və bu sırada Azərbaycanla razılığa gəlmələri daha yaxın görünür. SIA "Reuters"ə istinadən xəbər verir ki, bu barədə 4 mənbə bildirib. Belə ki, ötən gün Türkiyə Mərkəzi Bankı prezidenti Səhəb Kavcıoğlu bank rəhbərlərilə görüşü zamanı dörd ölkə ilə danışıqlar apardıqlarını, bunlardan ikisilə "çox yaxşı nöqtədə" olduqlarını bildirib.

Bu ay Prezident Rəcəb Tayib Ərdoğan Çinlə valyuta mübadiləsi həcmini 2,4 milyard ABŞ dollardan 6 milyard ABŞ dollarınadək artırmaq barədə razılığa gəldiklərini açıqlamışdı. Adını açıqlamamaq şərtilə danışan mənbələr bir sıra ölkələrlə danışıqlar apardıqlarını bildiriblər. O cümlədən ən mötəbər mənbənin dediyinə görə, hazırda əsas danışıqlar Azərbaycan və Malayziya ilə aparılır. Başqa mənbə isə danışıqlar aparılan ölkələr arasında Azərbaycanın "saziş imzalanmağa ən yaxın" olduğunu qeyd edib: "Həm Türkiyə, həm də Azərbaycan bu sazış üçün müsbət yanaşma göstərir".

Ötən il Türkiyənin valyuta ehtiyatlarının 75 % azalması tədiyyə balansında böhran yaranacağına dair şübhələrə səbəb olsa da, hökumət bunu təkzib edib. Belə ki, 2019-2020-ci illərdə lirənin məzənnəsini saxlamaq üçün dövlət bankları 128 milyard ABŞ dollarlıq vəsait ayırmalı olub.




# Azərbaycan Ermənistanın faşist simvolikasını aradan qaldırıb

Erməni teleqram kanalları növbəti dəfə Azərbaycana qarşı qarayaxma kampaniyası başlatmağa cəhd etsələr də, onların bu oyunu istədikləri nəticəni verməyib. SIA-ya daxil olan məlumata görə, onlar Azərbaycan tərəfinin Hadrutda (Ağoğlan) işğal vaxtı ucaldılmış "abidəni" dağıdıb. Lakin məsələ ondadır ki, həmin abidənin hansı məna kəsb etməsi barədə fikir bildirilmir və əslində, dağıdılmış "abidə" faşist simvolikası təsirini bağışlamaqdadır. Erməni işğalçıları bu "abidəni" məhz Azərbaycanın ərazisində inşa ediblər.

Lakin maraqlıdır ki, onlar Azərbaycana qarşı nəyə görə və hansı haqla ittiham irəli sürürlər? Çünki Azərbaycan doğru qərar verib və bu faşist simvoikasını söküb. Ermənilər dərk etməlidirlər və xatırlamalıdırlar ki, Sovet qoşunları Berlinə və faşist Almaniyasının digər şəhərlərinə daxil olarkən faşizmə aid olan bütün abidələri, simvolikaları məhv etdi. Azərbaycan isə 2021-ci ildə nasist Ermənistanın Qarabağda ucaltdığı "abidəni" aradan qaldırıb. Əslində, dünya Azərbaycana minnətdar olmalıdır ki, faşist Almaniyasını parodiya edən və nəticədə məğlub olan Ermənistanın belə "abidələrini" yer üzündən silir.

***Rövşən RƏSULOV***

**FOTOFAKT**

# “Tarixi zəfər Silahlı Qüvvələr Gününü daha əzəmətli edib”





***“Bu il 26 Iyun - Silahlı Qüvvələr Günü fərqli bir ovqatda qeyd olunur. Azərbaycan Silahlı Qüvvələri 30 ildir işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad edərək ən ali missiyasını yerinə yetirib.” Bu sözləri SIA-ya verdiyi açıqlamasında politoloq Ceyhun Məmmədli deyib. Politoloq vurğulayıb ki, bu tarixi zəfər Silahlı Qüvvələr Gününü xalqımız üçün daha da əzəmətli edib.***

“Azərbaycanın Silahlı Qüvvələrinin yaradılması və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması bu istiqamətdə atılmış ən mühüm addımlardan biridir. Təbii ki, həmin vaxt belə bir təşəbbüslə çıxış etmək böyük cəsarət tələb edirdi. SSRİ rəhbərliyinin ciddi narazılığına və yaradılan süni maneələrə baxmayaraq Ümummilli Lider Heydər Əliyev böyük qətiyyət və iradə nümayiş etdirərək bu hərbi məktəbin yaradılmasına nail oldu. Bununla da Azərbaycanın hərb sahəsində peşəkar kadrları yetişməyə başladı.

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtması ilə ordu quruculuğu prosesi daha geniş vüsət aldı. Ulu Öndərin dövlət quruculuğu yolunda atdığı ilk addımlardan biri Azərbaycan Ordusunun yaradılması oldu. Yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən siyasi birləşmələr ləğv edildi və nizami ordu yaradıldı. Azərbaycan tarixinin şanlı səhifəsi olan uğurlu Horadiz əməliyyatının keçirilməsi ilə qələbələrimizin əsası qoyuldu, Ordumuzda mənəvi-psixoloji durum yüksəldi, düşmən üzərində zəfər qazanmağa inam artdı. 2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt əməliyyatları nəticəsində işğal altında olan torpaqlarımızın bir hissəsi və strateji əhəmiyyətli yüksəkliklər azad olundu. Bu, Azərbaycan Ordusunun gücünü göstərməklə bərabər, həm də heç vaxt işğalla barışmayacağımızın bütün dünyaya bəyanı idi.

Şübhəsiz ki, Silahlı Qüvvələrimiz ən böyük nailiyyətini 2020-ci ilin 27 sentyabrında başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi nəticəsində qazandı. Azərbaycan Ordusu çətin iqlim və ağır relyef şəraitinə rəğmən böyük şücaət göstərərək, Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoydu. Qürurverici haldır ki, Silahlı Qüvvələrimizin həyata keçirdiyi hərbi əməliyyatlar dünyanın aparıcı hərbi məktəblərində təhlil və tədris olunmaqdadır. Bütün bu nailiyyətlərin təməlində Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin imzası dayanır.

Həm də ona görə qürurluyuq ki, Azərbaycan Ordusu eyni zamanda bütövlükdə region üçün xilaskarlıq missiyası yerinə yetiribdir. Müharibədən sonra regionda yeni əməkdaşlıq və inkişaf perspektivlərinin yaranması məhz şanlı zəfərimizin məntiqi nəticəsidir. Bu gün əgər bürtün region ölkələrinin əməkdaşlığını nəzərdə tutan “6-lıq” formatının reallaşmaq imkanları müzakirə olunursa, bu ideyanın da təməlində ordumuzun zəfər yürüşü dayanır”, deyə politoloq Ceyhun Əhmədli bildirib.

***İnam Hacıyev***

# Eldar Namazov: “Zəngəzur dəhlizi açılmazsa, Laçın dəhlizi bağlanacaq”



“Müharibə başa çatdıqdan sonra sərhədlərin ərazi bütövlüyü çərçivəsində tanınması qaçınılmaz prosesdir. Müddətə gəlincə, bu sentyabr ayından əvvəl, ya da sonra baş verə bilər”. SIA xəbər verir ki, bunu politoloq Eldar Namazov bildirib. Onun sözlərinə görə, sərhədlərin tanınması Cənubi Qafqazda sülhün bərqərar olması üçün vacib məsələdir və bundan ilk növbədə Ermənistanın özünün taleyi asılıdır: “Bu ölkədəki sosial-iqtisadi və demoqrafik situasiya fəlakətə yaxındır və bunu ermənilərin özləri də etiraf edirlər. Böhrandan çıxmaq üçün onlar Azərbaycan və Türkiyə ilə münasibətlərində sülh yaratmalıdırlar, sərhədlər açılmalı, ticarət inkişaf etməlidir. Bütün bunları icra etmək isə sərhədlərin qarşılıqlı olaraq tanınmayacağı halında mümkün deyil”.

### “Kommunikasiyaların açılması Ermənistan üçün xilas dairəsi ola bilər”

Eldar Namazov onu da qeyd edib ki, Naxçıvana dəhlizin açılması Ermənistanın iqtisadiyyatına böyük səmərə verə bilər: “Məhz bu ölkə yükdaşıma təcridindədir. Bütün nəhəng nəqliyyat layihələri Ermənistandan kənarda icra olunub və nəticədə Azərbaycan son illərdə onları uğurla realizə edib. Azərbaycanın Türkiyə ilə dəmir yolu rabitəsi var ki, bu barədə tez-tez Zəngəzur dəhlizi ilə bağlı danışılır. Bakı-Tbilisi-Qars istiqaməti üzrə mövcud marşrut işləyir. Əlbəttə, Zəngəzur dəhlizinin açılması Azərbaycan üçün bir çox məsələlərdə əhəmiyyətlidir ancaq bu, ölkəmizin ayaqda qalması üçün qoyulan həyati məsələ deyil. Lakin kommunikasiyaların açılması Ermənistan üçün xilas dairəsi ola bilər”.

### “Necə təsəvvür etmək olar ki, Laçın dəhlizi işləsin, ondan ermənilər istifadə etsinlər, amma azərbaycanlılar Naxçıvana olan dəhlizdən istifadə edə bilməsinlər?”

Politoloq daha bir mühüm vəziyyətə toxunub. Belə ki, 10 noyabr 2020-ci ildə imzalanmış bəyanatda iki kommunikasiya göstərilir: “Naxçıvana olan dəhliz və Laçın dəhlizi. Xatırladım ki, noyabr bəyanatı imzalanana qədər Azərbaycan ordusu dəhlizi əhatəyə almışdı, onda bu barədə İrəvandakı hakimiyyət də məlumat verirdi. Biz bu yolun blokadadan çıxarılmasını üçtərəfli bəyanata əsasən icra etdik. İndi razılaşmanın realizə olunmayan digər hissəsi qalır - Naxçıvandan dəhliz. Həmin kommunikasiyaların açılması sənəddə qeydə alınıb. Bu zaman necə təsəvvür etmək olar ki, Laçın dəhlizi işləsin, ondan ermənilər istifadə etsinlər, amma azərbaycanlılar Naxçıvana olan dəhlizdən istifadə edə bilməsinlər? Bu mümkün deyil və birbaşa razılaşmanı pozur. Beləliklə, əgər ermənilər Zəngəzur dəhlizinin açılmasına maneələr törədərlərsə, onda Bakı Laçın dəhlizini bağlaya bilər”.

### “Gürcüstan üzərindən də daxil olmaqla mövcud olan dəhlizlərimiz hədsiz yüklənib ki, onlar yeni yük dalğalarını saxlaya bilməz”

Eldar Namazov Zəngəzur dəhlizinin açılışından sonra Gürcüstanda yükdaşıma həddinin azalması, ya da yükdaşımaların Zəngəzur dəhilzinə tərəf istiqamətlənməsi məsələsinə də toxunaraq bildirib ki, gürcü tərəfi bundan narahat olmamalıdır.

“Zəngəzur dəhlizinin açılmasına yalnız Türkiyə və Azərbaycan arasındakı rabitə kontekstində baxmaq lazım deyil. İqtisadi nöqteyi-nəzərdən baxarkən, bu dəhliz Azərbaycanın işğaldan azad edilmiş ərazilərində, bütün Qarabağ regionunun bərpası və reabilitasiyası üçün mühüm rol oynayacaq. Burada bir çox sənaye, kənd təsərrüfatı obyektləri tikiləcək ki, onların məhsullarını həm də xaricə ixrac etmək lazım olacaq. Bizim isə Gürcüstan üzərindən də daxil olmaqla mövcud olan dəhlizlərimiz hədsiz yüklənib ki, onlar yeni yük dalğalarını saxlaya bilməz. Cənub istiqamətindəki dəhliz isə iqtisadi kooperasiyanı təmin edəcək, bütün regionun inkişlafı üçün multiplikativ effekt verəcək”.

***Rövşən RƏSULOV***

## Karen Vrtanesyan: “Eyni əməliyyatı Qarabağda da aparacaqlar”




İnformasiya təhlükəsizliyi mütəxəssisi, razm.info saytının koordinatoru Karen Vrtanesyan Ermənistan MSK-nın ilkin məlumatlarına istinad edərək yazır: “Gəlin bu rəqəmlərin nə demək olduğunu başa düşək:

Qeydə alınmış seçicilərin 50,59% -i seçkilərdə iştirak etməyib.

Nikol qeydə alınmış seçicilərin 26.49% səsini qazandı.

“Mənim şərəfim var” və “Ermənistan” bloku - 12.91%.

Səsləri sıfırlandı - 9.69%.

Bu nəticələrlə Nikolun türkləri, azərbaycanlılar, türklər, ruslar, amerikalılar və avropalılar Qarabağın təslim olmasına və erməni dövlətçiliyinin tədricən parçalanmasına erməni xalqının razılığını təmin etdilər. Erməni xalqı adından 9 Noyabr təslimolma qanuniləşdirildi.

Üstəlik təkrar edirəm, yalnız 26,29% seçici dövlətə ehtiyacımızın olmadığına səs verdi. Ancaq dünəndən bəri bütün dünya ortaq fikir olaraq təqdim olunur. Anladığım qədəri ilə, eyni bacarıqlı əməliyyat Qarabağda da aparılacaq ... Eynilə ... “etimad referendumu”.

# Azərbaycan çoxqütblü dünyaya inteqrasiya edə bilərmi?



## Aleksandr Duqin: "Azərbaycan çoxqütblü dünyanın qalası ola bilər və olmalıdır"

***Çin bütün dünyada "Bir kəmər, bir yol" layihəsi çərçivəsində özünün iqtisadi əməkdaşlığını partnyorları ilə fəal şəkildə aparmaqdadır. Bununla yanaşı, Çin ABŞ-ın və Qərbin artan təzyiqləri ilə qarşılaşır. Çinə yönəlik istər əvvəllər, istərsə də indi barışmaz mövqedə dayananlardan biri də ABŞ-ın sabiq prezidenti Donald Trampdır. O, bugünlərdə bəyan edib ki, Çin koronavirus pandemiyasının vurduğu zərərə görə təkcə ABŞ-a 10 trilyon dollar təzminat ödəməlidir.***

Çinə qarşı neqativ münasibət "Böyük yeddilik"lərin (G7) görüşündə də müşahidə olunub. NATO-nun sammitində isə Çin "kollektiv təhlükəsizlik qarşısında dayanan "çağırış" adlandırılıb.

### Çin Xalq Respublikası Bakı ilə partnyorluq edir

Bundan əvvəl ABŞ prezidenti Co Bayden Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüşündən sonrakı mətbuat konfransında bəyan edib ki, Rusiya Çinə qarşı tətbiq edilən təzyiqli vəziyyətə görə çox çətin situasiyadadır. Lakin bütün bunlara yanaşı, Çin Xalq Respublikası Bakı ilə partnyorluq edir. Pekin Azərbaycana investisiya qoyuluşlarını artırmaqla infrastruktur layihələri istiqamətində də əməkdaşlığını inkişaf etdirməyə hazır olduğunu nümayiş edir.

Bu barədə yaxınlarda telefon danışıqları aparan Azərbaycan Prezidenti İlham Əliyevlə ÇXR-in Baş katibi Si Tsinpin də fikir mübadilələri aparıblar. Bəs Qərb tərəfindən Çinə qarşı tətbiq edilən güclü hücumlar nə ilə bağlıdır və bu hücumlar daha nələrə gətiribçıxara bilər?

### "Rusiya və Çin özlərini iki qütb kimi təqdim edirlər və Amerikanın dünyəvi hegemon olaraq idarəçiliyinə məhdudiyyətlər qoyurlar"

SIA xəbər verir ki, caliber informasiya analitik mərkəzi tərəfindən verilən sualları siyasi elmlər doktoru, Rusiya filosofu və publisisti, Beynəlxalq Avrasiya hərəkatının lideri Aleksandr Duqin cavablandırıb.

"Əvvəlcə diqqəti ona çəkmək istərdim ki, bir çoxları ABŞ-da Donald Trampın tənqidçisi olan Co Baydenin Çinlə münasibətlərini yaxşılaşdıracağı, Rusiya ilə pisləşdirəcəyi barədə düşünürdülər. Ancaq eks-prezidentlə Ağ evin fəaliyyətdə olan dövlət başçısının siyasətləri çox az fərqlənir. Hər ikisi Rusiyaya qarşı çıxış edirdilər və indi də bu mövqedədirlər, o cümlədən, Çinə qarşı da bənzər çıxışlar olsa da, onlar müxtəlif intensivliklə müşahidə olunur", deyən Duqin bildirib ki, burada söhbət yeni dünya düzəninin obyektivliyindən gedir: "Rusiya və Çin özlərini iki qütb kimi təqdim edirlər və Amerikanın dünyəvi hegemon olaraq idarəçiliyinə məhdudiyyətlər qoyurlar. Elə Tramp da buna reaksiya göstərirdi və Çini əsas iqtisadi rəqib kimi gördü. Çin iqtisadi sferada ABŞ-a tabe olmur, Rusiya isə hərbi-strateji nəzər nöqtəsindən tabe olmayacağını nümayiş etdirir. Bax, beləcə iki qütb yaranır və onlar ABŞ-ın təkidarəçiliyini məhdudlaşdırır, qlobal layihələrinə mane olurlar.

Tramp ABŞ-ın milli maraqları təhlükəsinə diqqət yetirirdi. Bayden üçün hər şey daha ciddidir, belə ki, Rusiya və Çin dünya düzəninin alternativ qütbləri olaraq çıxış edirlər. Bu isə qloballaşmaya təhlükədir və qlobalistlərin düşüncələrinə görə suverenlik milli maraqların üstündə dayanan Qərbin və ABŞ-ın xeyrinə təhvil verilməlidir. Maraqlıdır ki, Amerikanın özündə millətçilər (Trampın tərəfdarları) və qlobalistlər (Baydenin tərəfdarları) Rusiya və Çinin dünyada oynamağa başladıqları bu rollarını eyni ölçüdə qəbul etmirlər".

### "Rusiya və Çin bərabərlik alyansındadırlar, ancaq ABŞ-la alyansa getməyəcəklər"

Duqin Çinin "Bir kəmər, bir yol" layihəsi müqabilində Avrasiyanın bütün sahilyanı bölgələrində geosiyasi və iqtisadi modelinin ekspansiyasının gedəcəyini deyib: "Əslində, qərbin liberal qloballaşdırma binası "yanır". Ortaya çoxqütblü dünyanın mənzərəsi çıxır və orada Vladimir Putinlə Si Tsinpin yaşayır. Ona görə Trampın ardınca Bayden ortaya çıxaraq Çinlə sərt qarşıdurmaya gedir. Rusiya və Çin bərabərlik alyansındadırlar, ancaq ABŞ-la alyansa getməyəcəklər. Amerikanın Trampın dövründə, həmçinin Baydenin dövründə bərabərlik qütblərini tanımaları ehtimal olunmur. Amerika ilə müttəfiqlik hər zaman onun hələdici rolunu, ideologiyasını, onun marağını tanımağı əks etdirir", rusiyalı siyasət elmləri doktoru bildirib.

### "Azərbaycana aidiyyatı olanlara gəlincə isə: əgər ölkə çoxqütblük əsasında özünün suveren, müstəqil siyasətini qurursa, onda bu, Çinlə iqtisadi partnyorluq, Rusiya ilə hərbi-siyasi əməkdaşlıq da ola bilər"

Filosof, həmçinin, Azərbaycanın Çinlə iqtisadi partnyor olması, "Bir kəmər, bir yol" layihəsi çərçivəsindəki əməkdaşlığı barədə də danışıb. Onun sözlərinə görə, Çinlə əməkdaşlıq yalnız o ölkələr üçün "toksik" ola bilər ki, onlar ABŞ-ın nəzarəti zonasında yer alırlar. Amerika bunu itaətsizlik aktı kimi qəbul edəcək. Dünya çətin keçid mərhələsindədir, çoxqütblü dünya eyni anda mövcuddur. Amerika rəhbərliyinin düşüncəsində vahid idarəçilik mərkəzi tərəfindən yönəldilən hər hansı "vahid dünya" təsəvvürü var: "Azərbaycana aidiyyatı olanlara gəlincə isə: əgər ölkə çoxqütblük əsasında özünün suveren, müstəqil siyasətini qurursa, onda bu, Çinlə iqtisadi partnyorluq, Rusiya ilə hərbi-siyasi əməkdaşlıq da ola bilər. Əgər Çin yaxındırsa, onda Rusiya lap yanındadır. Və yeri gəlmişkən, nəyə görə də Qarabağ azad olunandan sonra KTMT-yə və Avrasiya İqtisadi İttifaqına daxil olmaq məsələsi qoyulmasın? Buna maneə yoxdur. Ardıcıl fəaliyyət göstərmək lazımdır. Mənim görüşümə görə, Türkiyəni də Avrasiya İqtisadi İttifaqına dəvət etmək lazımdır. Bizim hamımız məhz Avrasiya dövlətləri olaraq fəaliyyət göstərməliyik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev suveren Azərbaycanın tərəfdarıdır, O, qəhrəmanlıqla ölkəsinin ərazi bütövlüyünü bərpa etdi. Və yeri gəlmişkən, bu prosesdə Vaşinqton deyil, Rusiya və Türkiyə özlərinin rollarını oynadılar".

### "İlham Əliyev müdrik və uğurlu siyasətçidir, O, atası Heydər Əliyevin yolu ilə gedir, Onun vəsiyyətini həyata keçirir, özü də parlaq nəticələrlə"

Beynəlxalq Avrasiya hərəkatının lideri Aleksandr Duqin sonda bildirib ki, o, Azərbaycanın sadiq dostudur, Azərbaycan Rusiya, Türkiyə və İran arasında avrasiyaçılıq baxımından böyük və həlledici əhəmiyyətə malik olan ölkə və xalqdır - Moskva üçün mühüm strateji partnyordur.

"Azərbaycan çoxqütblü dünyanın qalası ola bilər və olmalıdır. İlham Əliyev müdrik və uğurlu siyasətçidir, O, atası Heydər Əliyevin yolu ilə gedir, Onun vəsiyyətini həyata keçirir, özü də parlaq nəticələrlə. Və hər zaman yeni çağırışlara hazır olmaq lazımdır, İlham Əliyev bunu bacarır. Mən Ona inanıram, O öz xalqı və dövləti üçün ardıcıllıqla doğru yolu seçir", deyə qeyd edən Duqin Azərbaycanın da çoxqütblü dünyaya inteqrasiya edə biləcəyinə ümid etdiyini bildirib.

**Tərcümə etdi:**
**Rövşən RƏSULOV**

# "Hindistan ştammı"ndan necə qorunaq?

## Həkim qaydalardan danışdı



"Bildiyimiz kimi, hətta mutasiya olunmuş formalar belə mutasiyada enerji tərkibinin müəyyən bir hissəsində dəyişiklik olur. Ona görə də dəyişiklik olan hissənin hesabına da, bəzən virusun yoluxma intensivliyinin artmasına rast gəlinir". Bu sözləri SIA-ya açıqlamasında deputat, həkim Müşviq Məmmədli deyib.

Onun sözlərinə görə, imputasiya da həm xəstəliyin bir qədər yayılması sürətinin artması ilə yanaşı, həmçinin də xəstəliyin bəzi elmi məlumatlarında ağır getməsi təhlükəsi qeyd olunur. Lakin, bunlar hələ tam təsdiqlənmiş fikirlər deyil. Burada yeganə qoruyucu vasitə məsafə, maska və dezinfeksiyaedici tədbirlərdir. Yəni, bunlar profilaktik tədbirdir. Amma, bunlar o qədər də keyfiyyətli və effektli qoruyucu vasitələr deyil. Ən uyğun və təhlükəsiz qorunma vasitəsi peyvənddir".

Müşviq Məmmədli sözlərinə belə davam edib: "Ölkəmizdə tətbiq olunan hər qrup peyvənddə yoluxma riski demək olar ki, yoxdur. Həmçinin, bu peyvəndlər "Hindistan ştammı"na qarşı da qoruyucu effektlidir. İnsanlar özləri öz sağlamlığına uyğun şəkildə və yaxud infrastruktura hansı peyvənd uyğundursa onu seçməlidir. Əhali vaksinasiya prosesində yaxından iştirak etməlidir. Əhalinin bütün yaş qrupları vaksinasiya olunsa, o zaman biz bu təhlükəli risklərdən özümüzü sığorta etmiş olarıq".

***Ayşən Vəli***

# Dumanın Komitə sədri: Kommunikasiyaların açılması məcburidir

***Dağlıq Qarabağ nizamlanması çərçivəsində nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması çox yaxın gələcəyin reallığıdır. SIA xəbər verir ki, bunu Rusiya Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri Leonid Slutski bölgədəki bütün dövlətlər üçün nəqliyyat və iqtisadi əlaqələrin açılmasının vacibliyini, həmçinin, minalanmış ərazilərin xəritələrinin təhvil verilməsi məsələsi də daxil olmaqla Qarabağ nizamlanmasının humanitar aspektlərini Moskva-Bakıya şərh edərkən deyib.***

"Bu qanlı qarşıdurmanın on illərdir davam etdiyi aydındır. İndi isə bölgəni iqtisadi cəhətdən inkişaf etdirmək, əhalinin sosial problemlərini həll etmək lazımdır və bu, əlbəttə ki, kifayət qədər məcburi vəziyyətdir, eyni zamanda bütün bunların bir anda mümkün olmadığını mükəmməl başa düşürük. Rusiya, Azərbaycan, Ermənistan liderlərinin ardıcıl üçtərəfli bəyanatları ilə təmin edilən nəqliyyat və iqtisadi əlaqələrin qarşısını almaq mümkün deyil. Düşünürəm ki, bu işlər mərhələli və təcrican baş verəcəkdir və iqtisadi əlaqələr canlanacaq. Bu, parlament səviyyəsində, Rusiya, Azərbaycan, Ermənistan arasında istənilən məsləhətləşmələrin mövzusudur. Əlbətdə, bölgənin digər dövlətləri- həm Türkiyə, həm də İran- 1980-ci illərin sonlarından bəri davam edən və çox uzun sürən Qarabağ münaqişəsinin sona çatmasını alqışlayır.

Əminəm ki, Rusiya, eləcə də region ölkələrinin liderləri, davamlı qarşılıqlı fəaliyyətində nəqliyyat və iqtisadi əlaqələrin bərpa edilməsinə dair razılaşmaların həyata keçirilməsinin yollarını tapa biləcəklər və bu, hətta gələcəyə aid bir məsələ də deyi, bu, bu günün məsələsidir. Artıq məsləhətləşmələr aparılır, bölgədə nəqliyyat və iqtisadi əməkdaşlığın davamlı olaraq bərpa edilməsi mexanizmi barədə razılaşmalar əldə edilir. Bu asan olmayacaq, amma düşünürəm ki, bunun öhdəsindən gələ biləcəyik və əlbətdə ki, bu, çox yavaş-yavaş baş verəcəkdir. Ancaq əlbəttə ki, bu bazadır, bu, ilk növbədə bölgədəki iqtisadi əməkdaşlığın, daha sonra humanitar və digər hər hansı bir işin təməlidir. Əlbəttə, bu cəhətdən, regiondakı nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılmasının çox yaxın gələcəyin reallığı olduğunu düşünürəm"- Dumanın komitə sədri bildirib.



Bundan əlavə, Leonid Slutski Moskvanın Ermənistandakı seçkilərin Qarabağ nizamlanmasına dair üçtərəfli bəyanatların icrası üçün əlavə bir stimul olacağını gözlədiyini deyib. Dövlət Duması Komitəsinin sədri, "Ən başlıcası, geri dönmə nöqtəsinin keçilməsidir. Böhran həll edildi, Rusiya sülhməramlıları bölgədəki sülhü etibarlı şəkildə qoruyur"- o vurğulayıb.

***Elçin***

# “Ordumuz qürur mənbəyimiz”





***Dünən Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı 26 iyun Silahlı Qüvvələr Günü ilə əlaqədar “Ordumuz qürur mənbəyimiz” mövzusunda onlayn görüş keçirib.***

Onlayn görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açıb, xalqımızın ümummilli lideri Heydər Əliyev və ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edib. Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev 26 iyun Silahlı Qüvvələr Günü münasibəti ilə tədbir iştirtakçılarını təbrik edib və qeyd edib ki, Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə ordu quruculuğunu, silahlı qüvvələrin təkmilləşdirilməsini və maddi-texniki bazasının gücləndirilməsini, milli hərbi kadrların hazırlanmasını daim diqqətdə saxlayıb.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər sayəsində silahlı qüvvələr modernləşdirilib və bölgənin ən güclü ordusuna çevrilib. 1920-ci ilin aprelində Azərbaycanın Sovet işğalından sonra milli ordusunun ləğv edilməsi, yalnız Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra, 1991-ci il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Sovetində milli ordunun yaradılması haqqında qərarın qəbul edilməsi, Prezident Heydər Əliyevin 22 may 1998-ci il tarixli Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyunun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan olunması və hər il bu tarixin rəsmi dövlət bayramı kimi qeyd edilir.

Seyfəddin Əliyev ordumuzun əldə etdiyi uğurlardan qazanılan nailiyyətlərdən və qələbələrdən söz açaraq bildirib ki, Azərbaycan ordusu Ali Baş Komandanın əmri ilə ölkəmizin ərazi bütövlüyünü 44 günlük müharibədə tarixi Qələbə ilə əldə etdi. Bu möhtəşəm qələbələr haqqında bundan sonra kitablar yazılacaq, filmlər çəkiləcək. Biz bu gün tam əminliklə deyə bilərik ki, uğurlarımızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin son 17 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi idi.

Fəal YAP üzvü Gülcahan Vəkilzadə məruzə ilə çıxış edərək ölkəmizdə 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin ordu quruculuğu sahəsindəki əvəzsiz xidmətlərindən danışıb. Vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından birinə çevrilib deyə qeyd edib.

Görüşdə I Qarabağ müharibəsi qazisi Nahid Rəhimov, II Qarabağ müharibəsi qazilərindən Cəmaləddin Məmmədov, Daməd İbrahimli çıxış edərək Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ötən il sentyabrın 27-də başlanan və qısa vaxtda tarixi Qələbə ilə başa çatan Vətən müharibəsində Silahlı Qüvvələrimizin rəşadətindən, keçidkləri döyüş yolundan danışıb.

**RƏFİQƏ**

# “Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduğunu bəyan edib”



***“Ermənistanda keçirilən seçkilərdə Paşinyanın qalib elan olunmasından sonra müxalifətin bu nəticələr ilə razılaşmaq istəməməsi normal bir haldır. Çünki dünyanın bir çox ölkələrində müxalifət seçkilərin nəticələrini qəbul etmir və razılaşmır”. Bunu SIA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.***

Onun sözlərinə görə, Ermənistanda keçirilən seçkilərin nəticələrini bəyənməyən əsasən Dağlıq Qarabağdan olan klanın üzvləridir: “Sözügedən qüvvələr meydanı qızışdırmağa çalışırlar. Onların nəyəsə nail olacağını güman etmirəm. Artıq Paşinyan hər şeyi əlinə toplayıb ciddi nəzarət edir. Yeni Paşinyan bir sıra ciddi addımlar atacaq. Yeni Azərbaycan və Türkiyə ilə münasibətlərin yaxşılaşdırılması istiqamətində addımlar atacaq. Paşinyanın ətrafı belə hesab edir ki, sentyabr ayına qədər Azərbaycanla sərhədlərin delimitasiyası, mübahisəli məsələlərin çözülməsi, kommunikasiya vasitələrinin açılması həyata keçirilək. Eyni zamanda mina xəritələrinin verilməsi və mühakiməsi gedən diversantlarında Ermənistana qaytarılması nəticəsində münasibətlər istiləşə bilər. Həm Azərbaycan, həm də Türkiyə Ermənistanın özünün necə aparmasından asılı olaraq blokadanı götürmək məqsədi ilə addımlar ata bilərik. Bu yalnız Mehri dəhlizi açıldıqdan sonra olacaq. Amma bu proseslərin hamısını həyata keçirmək üçün Paşinyan tələsməlidir və çox ciddi qərarlar verməlidir. Zənnimcə, Paşinyan bu cür qərarları verməyə və Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduğunu bəyan edib. Bu da münasibətlərdə ciddi dəyişikliklər yarada bilər”.

***Gülyana***

# “Nar” “Gələcəyini Qur!” layihəsinə dəstək oldu

***Hər zaman elmə və gənclərin maariflənməsinə xüsusi önəm verən “Nar” ali təhsilli kadrların yetişdirilməsinə töhfə verən “Gələcəyini Qur!” Gəncliyə Dəstək layihəsi ilə əməkdaşlığa başlayır. Mobil operator ilkin mərhələdə 2021-2022-ci tədris ili üçün şagirdlərin seçim və müsahibə prosesinə rabitə dəstəyi göstərib.***




Qeyd edək ki, “Gələcəyini Qur!” layihəsi təhsil alma həvəsi olan 11-ci sinif şagirdlərini müəyyən edərək, onlar üçün bir il ərzində universitetə hazırlıq, psixoloji dəstək və şəxsi inkişafa yönəlmiş müxtəlif təlim, səfər və tədbirlər təşkil edir. 2014-cü ildən Təhsil Nazirliyinin dəstəyi və bir sıra şirkətlərin sponsorluğu ilə fəaliyyət göstərən “Gələcəyini Qur!” layihəsinin əsas məqsədi aztəminatlı ailələrdən olan yüksək bilik və bacarığa malik gənclərin həyatda uğur əldə etmələrinə dəstək olmaqdır. “Nar” növbəti gənclərin universitet hazırlığı xərclərinin ödənilməsini öz üzərinə götürəcək.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. “Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



# Bu yerdə Robertə dəstək olmağa dəyər..?

Mən deyəndə ki, Robert Koçaryanla Serjik Sarkisyan Artur Vanetsyanla müqayisədə daha “qürurlu” ermənilərdir, Siz buna, haradasa, etiraz etmək istəyirdiniz. Hə, indi deyin: mən deyən oldu, olmadı? Hə, indi nə olar ki, hətta 7 faizlik həddən də aşağı, yeni səslərin 5.23 faizini qazanan “Mənim qürurum var” bloku erməni parlamentinə getməyə “naz eləyir”. Bəlkə elə doğrudan da, “qürurlulara” səs verənlərin hamısı təkcə blokda təmsil olunan Serjik Sarkisyana səs verməyiblər.

...Bəlkə elə bloka səs verənlərin yarıdan çoxu Artur Vanetsyanın adına zəhmət çəkib seçki məntəqələrinə gəliblər.

Təbii ki, Vanetsyan da Serjdən fərqli olaraq, “qürur” nümayiş etdirərək, seçicilərini intizarda qoymaq istəməyib və rəhbərlik etdiyi “Vətən” partiyasının təmsilçisi kimi, parlamentdə oturmağa qərar verib.

Amma sizi bilmirəm, mən əsl “erməni qürur və təvazökarlığını” nümayiş etdirən Robert Koçaryan və ondan bir az balaca da olsa geri qalan Serjik Sarkisyana “qibtə etməyə bilmirəm”.

Belə görünür ki, onlar dediklərində israrlıdırlar: yəni seçicilərin onlara təklif etdikləri mandatları “yaxına buraxmaq” belə istəmirlər.

Axı, bu, belə olmamalıdır. Yaxşı, deyək ki, bu gün Robertlə Serjik başda olmaqla onların ətrafı mandatdan imtina edib deputat olmasalar, o zaman, məsələn, sentyabr ayında Nikol Paşinyan tərəfindən Azərbaycanın ərazi bütövlüyünü tanıyan sənədin imzalanmasına kim mane olacaq? Əgər Robertlə Serjik orada olmasa, onda vay Ermənistanda qalan ermənilərin halına..

Bu gün Nikolun əldə etdiyi “polad mandat”dan Bakı və Ankaranın maraqlarını təmin etmək üçün yararlanacağına bəzi ermənilər elə də şübhə etmirlər. Bəs, belə olan halda, Nikola qarşı kim “sinə gərəcək”? Bundan əlavə, Nikolun hazırda parlament xaricində güc müştəriləri axtardığı barədə də xəbərlər dolaşmaqdadır.

Maraqlıdır ki, bəzi erməni saytları Nikolun bu axtarışını erməni parlamentinə toplaşmaq niyyətində olan müxalifəti dəstəkdən məhrum etməyə hesablandığını deyirlər. Hətta Nkolun bu məsələ ilə bağlı yaxın ətrafını təlimatlandırdığını, onların bu işə böyük önəm vermələrini də tapşırdığı barədə xəbərlər dolaşmaqdadır. Deməli belə görünür ki, Nikol “...yandı qız...ey erməni müxalifətinin dədəsi”nə start verməyə hazırlaşır.

Amma bu yerdə yadımdaikən sizə də xatırladım ki, hazırda özlərini erməni müxalifəti adlandıranlar bir tərəfə, təkcə, “təvazökarlıq mücəssəməsi”, yəni erməni müxalifətinin “gözü” olan Robert Koçaryan bir tərəfə...yəni o indiyə qədər erməni parlamentində gedib oturmaqla bağlı hələ də “nəm-nüm” edir.

Yeri gəlmişkən deyim ki, ermənilərin “təvazökarlıq mücəssəməsi”, “görən gözü” daha nə bilim nəyi... parlamentdə oturmaq istəməməsinə gözəl bir əsas da gətirir. Deyir ki, mən Nikol kimi xain bir dövlət başçısının ətrafında dolanan Ararat Mirzoyan, Alen Simonyan, Lena Nazaryan və daha kimlərlə eyni parlamentdə oturub onların udduqları zəhərli havadan udmaq istəmirəm...

...Sizi bilmirəm, amma mənə görə, bu yerdə Robertə dəstək olmağa dəyər...

***Ağasəf Babayev***

# Müxalifətin Qərbə satılan xəyanət simvolu - Əli Kərimli

*Hərbçilərin maaşlarının azaldılması ilə bağlı AXCP sədrinin növbəti "oyunu" iflasa məhkumdur*

***Bu günlərdə AXCP və Müsavat partiyaları Azərbaycan milli azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyin 83-cü ildönümü günü məzarı başında öz liderinə xəyanətlə qazandığı "təcrübəni" Əli Kərimli indi də Azərbaycan dövlətinə qarşı istifadə etməsi bir daha bu satqının şərəfsizliyidir.***




AXCP sədri Əli Kərimli deyib ki, nəhayət, Məhəmməd Əmin Rəsulzadə, Elçibəy, Atatürk ideyaları qalib gələcək. O, iqtidarı Elçibəy ideyalarına qarşı olmamağa çağırıb. Bax, həyasızlıq, şərəfsizlik budur. "Torpaqlarını axıradək azad edəcək, demokratiyasını da quracaq. Vətəndaşına da sahib çıxacaq. Ayaqlar altında tapdalanan ədaləti də, azadlığı da başının üzərinə qaldıracaq. O zaman biz yenidən Elçibəyin məzarı başına gəlib ona hesabat verəcəyik",- deyən Əli Kərimli erməni sifətini nümayiş etdirməklə bu mənəviyyatsız və satqın elə zənn edir ki, tarix unudulub. Ancaq zaman keçdikcə tariximizin kritik hadisələri haqqında daha çox faktlar bəlli olduqca reallıqlar da gün işığına çıxır. Elə 1993-cü ilin 4 iyun hadisələri zamanı Azərbaycanda vətəndaş müharibəsinə yol açan AXC-Müsavat hakimiyyətinin təmsilçilərinin xəyanətləri kimi.

Lakin çox maraqlıdır ki, bu gün AXC-Müsavat hakimiyyətinin təmsilçisi olmuş Əli Kərimli xəyanətini unutdurmaq və məsuliyyəti "hər zaman lider deyib qarşısında baş əydiyi" Əbülfəz Elçibəyin üzərinə yıxmağa çalışır. Məhz Əli Kərimlinin tapşırığı ilə Ataxan Əbilov post yazaraq bildirib ki, 4 iyuna görə əsas məsuliyyət Elçibəyin üzərində qalır: "Nə Əbdulrəhmanın, nə də Ayazın bir sıravi vətəndaş olaraq mənim qarşımda heç bir məsuliyyəti yox idi. Mən onlardan heç nə gözləmirdim. Mənim qarşımda Əbülfəz məsuliyyətli idi və mən ona ümidli idim. O, sadəcə daşıdığı yükün mənasını düz dərk etmədiyindən sürətlə uçuruma yuvarlandı və bütöv bir cəmiyyəti də özü ilə bərabər ora apardı. Ona görə də 4 iyuna görə əsas məsuliyyət Elçibəyin üzərində qalır..."

### Əli Kərimlinin növbəti çirkin oyunu - hərbçilərin maaşlarının...

Öz liderinə xəyanətkarlıq edən satqın Əli Kərimlinin ziyarət zamanı növbəti çirkin oyununu işə salaraq cəmiyyəti çaşdırmaq üçün hərbçilərin maaşlarının azaldılması ilə "meydanlara, küçələrə çıxmaq, mitinq etmək" çağırışı bir daha AXCP sədrinin öz niyyətini həyata keçirmək məqsədi güddüyünü xalq yaxşı bilir və 28 il ediyi bu çağırışı özü deyir, özü də eşidir. Ancaq belə bir "oyun oynamaq" Əli Kərimli kimi milli dönüklərin, xəyanətkar ünsürlərin nə birinci, nə də sonuncu "oyunlarıdır".

Ancaq bu gün Ali Baş Komandan Prezident İlham Əliyev cənablarının hərbçilərin maaşlarının artırılması ilə bağlı verdiyi Sərəncam bu ünsürlərin bəd niyyətlərini alt-üst etdi. Çünki bu...

### Milli dönüklərin, xəyanətkar ünsürlərin bəd niyyətləri həmişə iflasa məhkumdur

Deyir "qozbeli qəbir düzəldər", amma radikal müxalifət deyilən satqınlar "sülaləsi"ni 28 il ərzində qəbir də düzəldə bilməyib. Hər şeydən spekulyasiya edən dağıdıcı müxalifət əxlaqsızlıq, bəli, əxlaqsızlıq edərək 44 günlük Qarabağ qələbəmizə kölgə salaraq erməniyə nökərçilik edir, qələbəmizin əhəmiyyətini azaltmağa çalışırlar. Ərazi bütövlüyümüzü bərpa etməklə dünyaya sübut etdik ki, erməni kimi çaqqalları dəmir yumruğumuzla it kimi torpaqlarımızdan qovarıq, qovduq da! Ancaq heç də həmin it kimi qovulan erməni çaqqallarından geri qalmayan, özlərini xalqa "vətənpərvər" kimi təqdim edən radikal müxalifət - AXCP-"Milli Şura" müxtəlif bəhanələrlə əldə olunan möhtəşəm qələbənin əhəmiyyətini azaltmağa, cəmiyyətdə zərərli müzakirələrə yol açmağa və bununla da həm öz himayədarlarının sifarişlərini yerinə yetirməyə, həm də gündəmdə qalmağa cəhd göstərirlər. Bu gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər unutmamalıdır ki, vaxtı ilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan kapitulyasiya vəziyyətinə düşmüş, Dağlıq Qarabağ və ətraf rayonları itirmişdir. Bu gün Azərbaycan Prezidenti xalqımıza böyük ağrılar yaratmış həmin səhvləri yüksək siyasi iradəsi, mətinliyi, yüksək diplomatik səriştəsi ilə aradan qaldırdı. Radikal müxalifət torpaqlarımızın azad olunmasına sevinmək, bunu qiymətləndirmək, Azərbaycan xalqından üzr istəmək əvəzinə, bu gün yenə də xəyanət və riyakarlıq yolunu tutur.

### Bu gün 44 gün ərzində bu həsrətə son qoyan Ali Baş Komandanımızın "dəmir yumruq" siyasəti ilə Qələbəmizə hansı cürətlə kölgə salmaq istəyirsiniz?

Ancaq bu satqınlar bilməlidirlər ki, Prezident İlham Əliyev nəyi necə və nə zaman etməyi bilir və özünün yaxşı bildiyini də bir daha nümayiş etdirdi. Bu Qələbə azərbaycanlılar haqqında "məğlub xalq" sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Bu isə, Prezident İlham Əliyevin son 18 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyasının nəticəsidir. Bu reallığı heç vaxt anlamayan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli... bu kimi sosial şəbəkə virusları bilməlidirlər ki, Azərbaycan xalqı bundan sonra da öz liderinə böyük etimad göstərərək təmkin nümayiş etdirəcək, hərbi qələbəni siyasi qələbə kimi möhkəmlədirəcək, yumruq kimi Azərbaycan Prezidentinin ətrafında birləşəcək. Və Vətən müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində əbədi qalacaqdır. Ə.Kərimli və onun kimilərin əsassız iddiaları isə xalqın gözündə heç bir dəyəri olmayan bu ünsürlərin son çırpınışlarıdır. Ölkəmizin başçısının mütəmadi olaraq hərbçilərin sosial vəziyyəti ilə bağlı imzaladığı sərəncamlar bu ünsürlərin bəd niyyətlərini alt-üst edir və bundan sonra da edəcək. Və tarixin zibilliklərinə atılan Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Xədicə İsmayılova, Qənimət Zahid, Leyla Yunus, Vidadi İskəndərli... kimilər bilməlidirlər ki, xalq üçün radikal müxalifət deyilən bir "varlıq" mövcud deyil! Çünki əsl həqiqət o bayraqda və onu oraya sancan vətənpərvərlərdədir!

Prezident İlham Əliyevin dediyi kimi: "Heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz!". Bəli, xalqımız öz müdrikliyi ilə bundan sonra da dövlətimizin başçısının ətrafında sıx birləşəcək.

***Rəfiqə HÜSEYNOVA***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Nooldu Kərimli..?

### Bəs Ermənistanda demokratik seçkilər və hakimiyyət var idi?!

Ermənistanda baş tutan (bəlkə də tutmayan) növbədənkənar parlament seçkiləri ilə bağlı səs-küylər bitib-tükənmək bilmir. Seçki məntəqələrində taburetlərin havalarda uçuşmasından başlayaraq ta ki, seçicilərlə məntəqə komissiyaları arasındakı əlbəyaxa döyüşlərin qeyri-rəsmi şəkildə həyata keçirilməsi kənardan bir gerçəkliyi izhar edirdi - bu ölkədə demokratiyadan, insan hüquqlarından, konstitusion dəyərlərdən ümumiyyətlə danışmağa dəyməz. Əgər Nikol Paşinyanın əlində oraq, Robert Koçaryanın da əlində çəkic vurhavurla seçkilərə gedilirsə, onu seçki deyil, tamamilə başqa cür adlandırmaq daha uyğun olardı. Bir məşhur filmimizdə səslənən meyxanada deyildiyi kimi: kim-kimədir, kim-kimə, şim-şimədir, şimşimə...

### AXCP-nin baş siyasi bülbülü

Saxtakarlıqların da sayı nəmxuda bir deyildi, iki deyildi, saysız hesabsız idi. Hərbçilərə hazır bülletenlərin verilməsindən tutmuş, "karusel" əməliyyatlarına qədər hansı oyunbazlığı desəydik, Ermənistandakı parlament seçkilərində gördük.

Hələ bu harasıdır? Səsvermə məntəqələrindəki kabinələrdə hazır seçilmiş bülletenlər sıra ilə düzülüb, üstəlik bir çox səsvermə zərflərindəki bülletenlər cırılaraq onların üzərinə "eşşək" və s. zooifadələr belə yazılmışdı. Bütün bunlar isə bir daha sadə erməni seçicisinin seçkilərə olan münasibətini və saxtakarlıq faktlarını üzə çıxarmış oldu.

İndi gələk AXCP-nin baş siyasi bülbülü Əli Kərimlinin istər seçkilərdən əvvəl, istərsə də seçkilərdən sonrakı erməni aşiqliyi məsələsinə. Yəni korkor, gör-gör idi ki, seçkilərdə ciddi saxtakarlıqlara yol verilib və Əli də dərhal sevimli internet bağlantısına çıxaraq başlayıb Ermənistandakı seçkiləri bəh-bəhlə tərifləməyə. Bu təəccüblü görünməməlidir.

Məsələn, Paşinyan hakimiyyətə gələr-gəlməz Əli Kərimlinin ipli kuklası, "Milli Şura"nın guya ki, sədri Cəmil Həsənli onu "təmiz, namuslu adam" adlandırdı, təbii ki, AXCP sədri də ona züy tutdu. Sonra isə həmin o Paşinyan Şuşada rəqs etdi, Araikin "prezidentliyini" orada qeyd etdi, üstəlik müharibə zamanı dinc şəhərlərimizə raket zərbələrini endirmək əmrini verdi. Görəsən, indi Cəmil və Əli abırlarına qısıla bilirlərmi? Əsla! Çünki abır nədir, heç şərəf və vicdanları belə yoxdur onların və bu, birmənalıdır. Elə belələrinin yanlarında olmağın özü də abırsızlıqdır daaa...

### "Duxu" çatırsa bircə dəfə (!) Ermənistandakı seçkiləri tənqid etsin

İndi Əli Kərimliyə bu sualın verilməsi zamanıdır ki, nooldu Əli Kərimli, bəs deyirdin, Ermənistanda demokratiya qalib gəldi, seçkilər demokratik keçdi???

Bir tərəfdən də qınamaq istəmirəm ki, Əli Kərimli elə əvvəldən Azərbaycana qarşı qənim kəsilmiş Qərbli ağalarının qarşısında təzim edən nökərdir və onların atdığı sür-sümüklə qidalanır. Ona görə də düz söz deməyə dili çönmür. Belə bir çətin vəziyyətdə ona başqa kim sür-sümük atacaq ki? Soros ağası, yoxsa erməni lobbisindəki erməni məlikləri? "Duxu" çatırsa bircə dəfə (!) Ermənistandakı seçkiləri tənqid etsin, ya da 44 günlük müharibədə bütün siyasi partiyaların imzaladıqları bəyanata o da imza atsın və ya Şuşa Bəyannaməsinə də dəstək göstərsin, edə bilərmi? Edə bilməz! Dərhal və qeyd-şərtsiz tullayarlar onu elə bir dərəyə ki, daha heç vaxt oradan çıxa bilməz. Bəs nooldu Kərimli, buna nə deyirsən ay siyasi bədbaxt?

# "Bu strategiya öz bəhrəsini verib"



***Azərbaycanın strategiyası uzun illər boyu ondan ibarət olub ki, Ermənistan təcrid olunsun. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Fərhad Məmmədli deyib. Politoloq xüsusilə vurğulayıb ki, məhz bu strategiya da, yəni Ermənistanın təcrid olunması da öz bəhrəsini verib.***

"İllərlə Azərbaycanın Ermənistana qarşı təcrid sanksiyası tətbiq etdiyinə görə bir çox dövlətlər Azərbaycana irad bildirirdilər. Amma tarix və zaman elə gətirdi ki, 2014-cü ildən sonra və Tramp prezident olandan sonra sanksiyalar beynəlxalq münasibətlərin nəinki bir hissəsinə, mən deyərdim ki, aparıcı vasitəsinə çevrildi. Xarici siyasətin həyata keçirilməsi üçün və xarici siyasətdə məqsədlərə çatmaq üçün ən çox istifadə edilən bir vasitə oldu. Azərbaycan da bu sanksiya strategiyasının həyata keçirilməsində bir neçə istiqamətdə uğur qazandı. Birincisi, Ermənistanın iqtisadi inkişafı və iqtisadi göstəriciləri zəifləyib. İkincisi əhali azalıb, hansı ki, bu azalma Ermənistanda rəsmi şəkildə təsdiq olunubdur və qeyri-rəsmi rəqəm daha böyükdür. Bundan əlavə, təcrid olunduğu üçün öz müttəfiqləri ilə, yəni, üzv olduğu beynəlxalq siyasi təhlükəsizlik və iqtisadi birliklərdə öz müttəfiqləri ilə əlaqələri zəiflədi. Əksinə olaraq, məhz Azərbaycanın Ermənistanın müttəfiqləri ilə münasibətlərinin qat-qat üstün olduğu bir reallıqdır. Bax, bu nailiyyətlər oldu.

Qaldı ki, Nikol Paşinyanın seçilməsinə, belə deyək, uğur qazanmasına, birincisi burada Ermənistanın daxili siyasət səbəbləri var. Bu, keçmiş hakimiyyətlərə əhalinin böyük əksəriyyətinin inamsızlığıdır. Elə Paşinyanın seçki kampaniyası da məhz keçmişlərə qarşı ünvanlanmışdı, nəinki gələcəyə baxış formalaşdırırdı. İkincisi, Paşinyanın digər siyasətçilərə nisbətdə xalqa daha yaxın olmasıdır. Xarici siyasət konteksti isə, ondan ibarətdir ki, Paşinyan digərlərindən fərqli olaraq, yəni müharibədən sonra müharibənin nəticələri ilə bir az da olsa hesablaşır.

Əlbəttə, Ermənistanın vəziyyəti açınacaqlıdır, amma yenə də digərlərinə nisbətən Paşinyana daha çox ümid edirlər. Bu da ən çox daxili siyasət motivləri ilə əlaqədardır. Xarici siyasətdə isə, o bəlkə də Petrosyandan sonra yeganə siyasətçidir ki, məcburi də olsa konkret vasitəçilər vasitəsi ilə hərhansısa bir məsələdə Azərbaycanla uzlaşa bilir və sonuncu bu mina xəritələrinin əvəzinə 15 diversantın verilməsi də erməni cəmiyyətinə güclü bir mesaj idi ki, digər siyasətçilərlə nisbətdə məcburi də olsa Paşinyanla Azərbaycan hansısa məsələlərdə uzlaşa bildiyini təsdiqləyir. Bu mesaj əlbəttə ki, erməni cəmiyyətində həlledici olmasa da öz rolunu oynadı", deyə politoloq Fərhad Məmmədli bildirib.

***İnam Hacıyev***

*Ukraynanın tanınmış fotoblogeri və səyyahı Aleksandr Çebanın Azərbaycana səfəri davam edir və onun əsasən, 30 ilə yaxın dövr ərzində işğal altında qalmış və 44 günlük müharibədən sonra azad edilmiş torpaqlarımızdan hazırladığı reportajları istər postsovet məkanında, istərsə də digər xarici ölkələrdə maraqla izlənilir.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ukraynalı bloger bu dəfə Ağdamdadır!

## *Aleksandr Çeban hər şeyi olduğu kimi danışır və göstərir*






Ötən gün onun Füzuli şəhərində gedən tikinti quruculuq, inşaat və bərpa işləri ilə bağlı hazırladığı reportajı təqdim etmişdik. Aleksandr əsasən, Füzulidə inşa edilən və beynəlxalq standartlara cavab verəcək aeroportla bağlı çoxsaylı fotosüjetlər təqdim edib, qısa müddətdə tikilərək istifadəyə veriləcək hava limanının möhtəşəmliyindən heyranlıqla söhbət aparıb, cəmi altı ay ərzində belə nəhəng infrastrukturun az bir zamanda yalnız Azərbaycanda tikilə biləcəyini vurğulayıb.

httrs://sia.az/az/news/rolitics/877976.html

### Növbəti fotoreportaj - Ağdam...

"Biz tozlu yolla praktiki olaraq gecə və gündüz bütün istiqamətlərə doğru hərəkətdə olan tikinti texnikalarını ötərək irəliləyirik. Elektrik yarımstansiyaları, su təchizatı stansiyaları, yollar, körpülər, kommunikasiyalar - bu yerlər 25 illik süstlükdən sonra regionda həyatın geri qaytarılmasının inkişaf əsasıdır", qeyd edən ukraynalı fotobloger Ağdam sözünün mənasını izah edərək bildirir ki, bura Qarabağ xanlığının rəhbəri Pənahəli xanın "İmarət" iqamətgahının ağ rəngdə olmasından götürülüb. Bloger bildirib ki, onun iqamətgahı son 25 ildə ayaqda qala bilib və dağıdılmayıb. SİTAT: "Ağdam Xankəndidən 26 km, Bakıdan isə 365 km aralıda, şərqi Qarabağ silsiləsinin ayağında, Qarabağ düzənliyinin kənarında yerləşir. İki onilliklər boyunca dağıdılmış kəndlərin və bütöv şəhərlərin qalıqlarını görəndə onları sözlə ifadə etmək ağırdır. Buradakı torpaqların minalardan təmizlənməsi uzunmüddətli işlər tələb edir".

### Ağdamın girişində elə də böyük olmayan ekspozisiyanı nəzərdən keçirərkən tamamilə başqa şey gördüm

Aleksandr qeyd edir ki, Qarabağda həyatın bərpası prioritet olaraq götürülüb və planlar, onların realizəsi azərbaycanlıların bu məsələdə qətiyyətli olduğunu göstərir, bu isə təsəvvürəgətirilməzdir.

Bloger yeni Ağdamın planını görərkən heyrətini gizlədə bilməyib: "Mən düşünürəm ki, ümumilikdə yeni şəhər salmaq, sadə tikililər inşa etmək, oraya insanları yerləşdirmək və s. heç də çətin iş deyil, amma mən Ağdamın girişində elə də böyük olmayan ekspozisiyanı nəzərdən keçirərkən tamamilə başqa şey gördüm - şəhər infrastrukturunun dünyanın uğurlu şəhərlər təcrübəsini əks etdirən möhtəşəm planı, rəqəmli texnologiyalar, bərpa olunan enerji, texnoparklar və gələcək investisiyalar üçün xüsusi tələblərə malik zonalar.

### Ağdamın bərpası planları

Aleksandr Çeban Ağdamın müasir quruluşunun necə olacağı ilə bağlı planları gördükdən sonra onları izahlı şəkildə aydınlaşdırmağa çalışıb. SİTAT: "Tikinti planları barədə rəsmi informasiyalar bu barədədir: Müasir Ağdama şəhərin özü olmaqla Ağdam rayonunun yaxınlığında yerləşən +8 kəndi də daxil olacaq. Ağdamın ölçülərini 1750 hektar + 2450 hektar da yaşıl zonalar (bağlar) təşkil ediləcək. Şəkillərdəki sxemlərdə bu göstərilib. Şəhər sakinlərinin sayı 100 min olacaq ki, bu da Ağdamı Qarabağın ən böyük şəhərinə çevirəcək və Azərbaycanın 6-cı ən böyük şəhəri olacaq. Əhalinin 70-%-i çoxmənzilli, 30%-i isə fərdi evlərdə yaşayacaq. İlkin mərhələdə şəhərdə 1750 yaşayış binası və çoxmənzilli evlərdə 23 000 mənzil olacaq. Şəhər ərazisinin 23%-i meşə və park zonalarından (yaşıl zona) ibarət olacaq. Ağdamda həmçinin 125 hektar ərazidə meşə parkı yerləşəcək".

Bloger sənaye əraziləri (industriya parkları) barədə də söhbət açıb.














O, qeyd edir ki, bu sənaye parkları şəhərin yaxınlığında tikiləcək ki, məşğulluq sabitliyini qoruyub-saxlasın: "Estetik məsələ də unudulmayıb. Şəhərdə süni gölün yaradılması nəzərdə tutulub. Həmçinin, şəhər üzərindən 2 kanal keçəcək və onların üstündə körpülər inşa olunacaq. Şəhər zonalaşdırılacaq və tarixi mərkəzə, inzibatiyə, yaşayışa, yaşıllıq və sənayeyə, eləcə də kənd təsərrüfatı zonalarına ayrılacaq. Tarixi mərkəz özündə İmarət saray kompleksini, Qarabağ xanlarının mavzoleylərini, Şahbulaq qalasını və yeni məscidini birləşdirəcək".

### Azərbaycanda ilk dəfə "ağıllı şəhər" konsepsiyası tətbiq ediləcək

Aleksandr şəhərin Qarabağ ənənələrinə malik arxitektura stilinə malik olacağını bildirib: "İnzibati mərkəz 30 min insanı toplayacaq futbol stadionundan, bələdiyyə binalarından, teatr, konsert zallarından, Qarabağ universitetindən ibarət olacaq. Həmçinin, Qələbə şərəfinə memorial muzey və açıq havada konsert zalı olmaqla park inşa ediləcək. Hər bir fərdi yaşayış evinə kənd təsərrüfatı tələbatlarının ödənilməsi üçün 4-5 hektar torpaq ayrılacaq.

Su təchizatının təminatı üçün Suqovuşan, Xaçınçay su anbarları, həmçinin artezian mənbələri istifadə olunacaq. Ağdam insanlar üçün komfort yer olmalıdır. Şəhərdə piyadalar və veloxətlər üçün böyük şəbəkələr olacaq. Şəhərin nəqliyyat sistemi dairəvi nəzərdə tutulur. Avtomobil yollarından ayrı tramvay xətti istifadəyə veriləcək. Azərbaycanda ilk dəfə "ağıllı şəhər" konsepsiyası tətbiq ediləcək".

### Realizə müddəti

Ukraynalı bloger qeyd edir ki, layihənin vizuallığına baxarkən yalnız bir sual yaranır, "nə vaxt?". SİTAT: "İlk yaşayış kompleksi artıq gələn il inşa ediləcək, mən əvvəlcə düşündüm ki, bu oteldir, çünki çox stilli görünür. Bu ana qədər gərək yollar tikilsin və infrastruktur bazaları mövcud olsun. Artıq indidən buldozerlər hektarlarla tikinti qalıqlarını kənara aparır və gələcək tikinti meydanı üçün yer hazırlayırlar".

O, qeyd edir ki, Ağdam, ümumilikdə isə Qarabağ unikal iqliminə və şəraitinə görə hər zaman aqrar bölgə olub. Bu baxımdan, müasir və rahat həyatla yanaşı, kənd təsərrüfatı və sahibkarlıq özü-özlüyündə buraya geri qayıdacaq.

İnanıram ki, artıq bir ildən sonra burada hər şey yepyeni olacaq!"

Aleksandr Çeban reportajının sonunda yazır ki, turizm nöqteyi-nəzərindən Ağdam və Qarabağ hərbi-tarixi kontekstdən saxlanılmalı, tarixinin müxtəlif dövrlərini göstərməlidir: "Region 90-cı illərin əvvəllərindən həyat işartıları görünməyən bir yer olub, dağıdılıb və talan edilib, özü də döyüşlər vaxtı deyil. Lakin burada bir çox tarixi binalar yaxşı vəziyyətdə olmasa da, ayaqda qala bilib. Mən hazırkı mənzərəni gələcək planlarla qarışdırmaq istəməzdim, ancaq növbəti postlarımda Ağdamın hazırda necə göründüyünü mütləq göstərəcəm. İnanıram ki, artıq bir ildən sonra burada hər şey yepyeni olacaq!"

***Rövşən RƏSULOV***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

26 iyun

# Səs

Son səhifə

## “Barselona” Messi ilə niyə razılığa gələ bilmir?



*“Barselona” və kapitanı Lionel Messi yeni müqavilə ilə bağlı razılığa gələ bilmirlər. Qol.az xəbər verir ki, bu barədə İspaniyanın AS nəşri məlumat yayıb.*

Bundan əvvəl argentinalı hücumçu ilə müqavilənin yenilənməsi ilə bağlı iyunun 24-də rəsmi açıqlama veriləcəyi bildirilsə də, bu, olmadı. Messinin maaşının azaldılması ilə bağlı da Kataloniya klubuna güzəştə getməyə hazır olduğu, ancaq tərəflərin bəzi məsələlərdə ortaq məxrəcə gələ bilmədiyi qeyd olunub.

Xatırladaq ki, 34 yaşlı hücumçunun “Barselona” ilə müqaviləsi bu ayın 30-na qədərdir. Bütün karyerası ərzində “Barselona”da çıxış edən Messi komandası ilə 4 dəfə Çempionlar Liqasının qalibi olub.

## 26 il gəncləşən məşhur

Demet Şener instaqramdan tətil fotosunu paylaşıb. İzləyiciləri Şenerin paylaşdığı fotonu Miss Türkiyə seçildiyi zaman çəkdirdiyi foto ilə müqayisə ediblər. SIA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, iş həyatına başlayan Demet Şener işinə ara verib və tətilə çıxıb.

İnstaqramda qızı İrem tərəfindən çimərlikdə çəkdirdiyi şəkli “Rəngim biraz qapalı görünür” yazısı ilə paylaşıb. 1995 Miss Türkiyənin qalibi Demet Şenerin bu görüntüsü, izləyiciləri tərəfindən o dövrdəki bir fotoşəkili ilə müqayisə edilib və hər kəs “İndi daha yaxşı görünür” şərhini verib.



## Qəhvə içənlər diqqətli olun - YENİ FAKTLAR



İngiltərədə aparılan bir araşdırmada hər növ qəhvənin istehlak edilməsinin xroniki qaraciyər xəstəliklərinin qarşısını ala biləcəyi ortaya çıxıb. SIA-nın xarici mətbuata istinadən verdiyi xəbərə görə, İngiltərədəki Southampton Universitetinin tədqiqatçıları qəhvənin xroniki qaraciyər xəstəliyi riskini azaltdığını araşdıran bir iş apardılar. İngiltərədəki Bio Bank məlumatlarına əsaslanan araşdırmada 494 min 585 iştirakçının məlumatları analiz edilib. İştirakçıların 40 ilə 69 yaşları olduğu, bunlardan 384 min 818 nəfərinin qəhvə istehlak etdiyi, 109 min 767 nəfərin qəhvə istehlak etmədiyi qeyd edilib.

Təhlillər nəticəsində qəhvə istehlak edənlərin qəhvə istehlak etməyənlərə nisbətən xroniki qaraciyər xəstəliyi və qaraciyər kökəlməsi ilə əlaqəli xəstəliklərin inkişaf riskinin yüzdə 20 daha az olduğu müəyyən edilib.

*Ziya Hikmətoğlu*

## Satıcıların müştərilərə söyləmədiyi 6 fənd



*Alış-veriş vərdişlərimizdən xəbərdar olan satıcılar daha çox məhsul satmaq üçün bəzi fəndlərdən istifadə edirlər. SIA Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunlara saxta endirimlər, fərqli bədən ölçüləri və istifadə etdikləri materialdakı dəyişikliklər daxildir. Sadəcə satışda olduğu üçün məhsul almaq istəyirsinizsə, yenidən düşünməlisiniz. Satıcıların müştərilərə heç vaxt söyləmədikləri 6 fənd:*

### 1. Yalan endirim

Endirim gördükdə, dayana bilməyib ehtiyacınız olmasa da həmin məhsulu alırsınız? Satışlar müştəriyə yox, firmaya qazanc əldə etmək üçün edilir. Bəzən satıcılar malları endirimdə göstərmək üçün əvvəlcədən bir qədər yüksək deyirlər. Xüsusilə onlayn satışlarda bu vəziyyətlə tez-tez qarşılaşırıq. Yəni, gördüyünüz hər endirim əsl endirim deyil.

### 2. Geyimlərin ölçüləri markaya görə fərqli ola bilər

Markaların fərqli geyim nümunələri var. Bir markanın 34 ölçüsü digər markanın 36-na bərabər ola bilər. Bəzi markalar qadın müştərilərin paltarları asanlıqla ala bilməsi üçün ölçülərini azalda bilər.

### 3. Məşhur dizaynerlərlə iş birliyi keyfiyyəti artırmaz

Bəzi şirkətlər daha çox məhsul satmaq üçün məşhur dizaynerlərlə əməkdaşlıq edə bilər. Həmçinin, məhdud sayda məhsulları əvvəlki məhsulları ilə eyni keyfiyyətdə olacaq.

### 4. Satış bölümləri bilərək dağınıq görünə bilər

Bəzi mağazalarda bir-birinin üstünə yığılmış, səbətlərə atılan və ya hətta yerə qoyulmuş məhsulları görə bilərsiniz. Səbəbi müştərilərin burada yaxşı bir sövdələşmə olduğunu düşündürməkdir. Beləliklə, bu dərhal bir şey almaq arzusu oyadır.

### 5. Sintetik məhsullar təbiilərlə eyni maliyyədədir

İstehsalçılar təbii parçadan hazırlanan məhsulları daha baha satsalar da, sintetik məhsullarla eyni qiymətə başa gəlirlər. Təbii məhsul yalnız müştərini yanıltmaq üçün etiketlənir.

### 6. Bahalının yanında ucuz məhsullar da istehsal olunur

Lüks mağazalar da bahalı məhsulların ucuz variantlarını istehsal edir və istədikləri qazancı əldə etmək üçün satış nöqtələri kimi satırlar.

*Ayşən Vəli*

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600